بسم الله الرحمن الرحيم

# إن الله يحب

# ALLAH SEVİR



## ALLAH GÖZƏLDİR VƏ GÖZƏLLİKLƏRİ SEVİR

### ALLAH YAXŞILIQ EDƏNLƏRİ SEVƏR!

O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da (mallarından Allah yolunda) xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir.

(Ali-İmran, 134)

### ALLAH SƏBR EDƏNLƏRİ SEVƏR!

Neçə-neçə peyğəmbər bir yığın allahpərəstlə (Allah adamı ilə) birlikdə (düşmənə qarşı) vuruşmuşlar. Lakin onlar Allah yolunda çəkdikləri müsibətlərə görə nə zəiflik, nə acizlik göstərmiş, nə də (kafirlərə) boyun əymişlər. Allah səbr edənləri sevər!

(Ali-İmran, 146)

### ALLAH TÖVBƏ EDƏNLƏRİ SEVƏR!

Heç vaxt orada namaz qılma. İlk gündən təqva üzərində qurulmuş məscid, əlbəttə, içində namaz qılmağın üçün daha layiqdir. Orada pak olmağı sevən kişilər vardır. Allah da pak olanları sevir.

(Tövbə, 108)

### ALLAH İTAƏTKARLARI SEVƏR.

(Ya Rəsulum!) De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, mərhəmətlidir!"

(Ali-İmran, 31)

### ALLAH TƏVƏKKÜL EDƏNLƏRİ SEVƏR!

Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar. Sən onların günahından keç, (Allahdan) onların bağışlanmalarını dilə və görəcəyin işlər barədə onlarla məsləhətləş. Qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevir.

(Ali-İmran, 159)

### ALLAH ƏHDİNƏ VƏFA EDƏNLƏRİ SEVƏR!

Hər kəs öz əhdinə vəfa etsə və pis əməllərdən çəkinsə (əmanətə xəyanət etməsə), şübhəsiz ki, Allah (belə) təqvalıları sevər.

(Ali-İmran, 76)

### ALLAH PAK OLANLARI SEVƏR!

Heyz zamanı qadınlardan kənar olun, (heyzdən) təmizlənməyənə qədər onlarla yaxınlıq etməyin, təmizləndikdən sonra isə Allahın sizə əmr etdiyi (buyurduğu qayda üzrə) onlara yaxınlaşın!" Allah (günahından) tövbə edənləri, (təmiz və) pak olanları sevər!

(Bəqərə, 222)

### ALLAH YOLUNDA CİHAD EDƏNLƏRİ SEVƏR!

Şübhəsiz ki, Allah Öz yolunda möhkəm divar kimi səf çəkib döyüşənləri sevər!

(Saff, 4)

### ALLAH İNSAFLILARI SEVƏR!

Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları dərhal barışdırın. Əgər onlardan biri təcavüzkarlıq etsə, təcavüzkarlıq edənlə Allahın əmrinə (itaətinə) qayıdana qədər vuruşun. (Təcavüzkarlıq edən Allahın əmrinə) qayıtsa, hər iki dəstənin arasını ədalətlə düzəldin və insafla hərəkət edin. Şübhəsiz ki, Allah insaflıları sevər!

(Hücərat, 9)

Bütün Gürcüstan Müsəlmanları İdarəsi 2016

# Niyə müsəlman olmalısan?



***Hər kəs özünə "niyə müsəlman olmalıyam" sualını verə bilər. Bu suala cavab kimi qısa olaraq İslam dininin bəzi özəlliklərini qeyd edirəm:***

***İslam haqq dindir, digər dinlər kimi təhrif olunmayıb. Bu dində Allah xristianlıqda "üç üqnüm" kimi anlaşılmaz, yəhudilikdə isə peyğəmbəriylə güləşən biri kimi yanlış təsəvvür edilmir. İslamda Allah bənzərsizdir, misli yoxdur, yerin-göyün nurudur.***

***Bu din kor-təbii, məcburiyyətlə deyil, məntiqlə, şüurla, açıq dərklə qəbul edilməlidir. İslam dininin prinsiplərinə əsasən, tədqiqatsız qəbul edilən din məqbul deyil. Ona görə də Qurani-kərimdə dəfələrlə "niyə düşünmürsünüz" sualı ilə oxuculara müraciət edilir.***

İslam asan dindir. Bu dinin göstərişlərinə hamı əməl edə bilər. Heç kəsə qüvvəsi xaricində əmr edilməyib.

Bu din mükəmməl dindir. Digər dinlərdəki təzadlar, məntiqsizliklər burada mövcud deyil.

İslam birtərəfli deyil. Həm dünyaya, həm də axirətə təkid edir. Əgər sülhə təkid edirsə, zalımlara, müşriklərə qarşı cihadı da istisna etmir.

İslam dinində hüquq baxımdan gender fərqi yoxdur. Kişi qadından, qadın kişidən üstün deyil. Üstün olanlar yalnız təqvalılardır.

İslam dininə əsasən, Həvva (ə) Adəmin (ə) qabırğasından deyil, onun yarandığı torpaqdan xəlq edilib. Bu da qadın və kişinin eyni cinsdən yaradılmasını göstərir.

Bu dinə əsasən, qadın azma səbəbi deyil. Şeytan ilk olaraq Həvvanı yoldan çıxarmayıb. Quranın bildirdiyinə görə, şeytan onların hər ikisini aldadıb.

İslam dinində kişilərlə yanaşı qadının da ictimai, iqtisadi hüququ var. O da kişilər kimi qazandıqlarının yiyəsidir.

İslam dinində günahların bağışlanması üçün günahkarla Alah arasında kimsə vasitə olmur. Xəlvətdə, hətta ürəkdə günahların bağışlanması diləsə, Allah əfv edər. Allah günahları çox və tez bağışlayandır.

İslam dinində elm öyrənmək həm qadına və həm kişiyə vacibdir. Peyğəmbərə (s) nazil olan ilk kəlmə "oxu" olub. Sünnədə də ən çox söz açılan mövzu elmdir. Bu dində alimin mürəkəbi şəhidin qanından belə üstün tutulur.

İslam dinində yalnız dini elmlərə əhmiyyət verilmir, dünyəvi elmlər də dəyərlidir. İslam dinində fiqhə, əqidə prinsiplərinə önəm verildiyi kimi tibb, astronomiya, dil və ədəbiyyat, tarix və s. elmlərə də dəyər verilir. (Bihar əl-unvar, c. 1, səh. 218-220). Həm də İslam peyğəmbəri (s) buyrub ki, elm Çində də olsa öyrənmək lazımdır. Məlumdur ki, o dönəmlərdə, elə indinin özündə də bu ölkədə dini dərslər tədris edilməyib. Demək peyğəmbərin (s) məqsədi dünyəvi elmlər olub.

İslam peyğəmbəri hz. Məhəmməd (s) mərhəmətli, şəfqətli və mehriban bir şəxs olub. Allah ona xitabən buyurur ki, əgər mehriban olmasaydın, ətrafına kimsə yığışmazdı.

Hz. Məhəmməd (s) hətta ona qarşı kobud rəftar edənlərlə şəfqətli olub, onlar üçün dua edib. Öz gözəl əxlaqı ilə səhv olduqlarını onlara başa salıb. Allah ona xitabən "Şübhəsiz ki, sən böyük əxlaq sahibisən!" deyir.

O, qadınlarla çox nəzakətli davranıb. Qadınlar diri-diri torpağa basdırıldığı bir dövrdə onlara önəm verib, haqlarını tanıyıb. Hamıya nümunə olmaq üçün qızı otağa daxil olanda ayağa qalxıb, ona qayğı göstərib. Ev işlərində ona kömək edib.

İslam dinində qadın bir əşya deyil, o, qul sayılmamalıdır. Əksinə qadınlar gül kimidir, dəyərləri bilinməli, əzizlənməlidirlər.

İslam dinində valideynlər hətta kafir olsalar belə ehtirama layiqdir. Övladlar onlara qulluq etməli, qayğı göstərməlidir. Qurani-kərimə görə, valideynlərə hətta "uff" belə deyilməməlidir.

Bu dində irq, dil ayrı-seçkiliyi yoxdur. Hamı bərabərdir, qardaşdır. Peyğəmbərin böyük səhabələrindən biri, həm də ilk müəzzin qara dərili, köləlikdən azad edilmiş Bilal adlı bir şəxs olub.

İslam dinində vətən əzizdir. Elə buna görədir ki, vətəni sevmək imanın nişanəsi hesab edilir.

İslam dinində hamı bir-birinə əl tutmalıdır. Zəkat, xüms, sədəqə, ehsan, infaq və s. dini dəyərlər bu kimi əhəmiyyət kəsb edir. Oruc tutmağın bir fəlsəfəsi də ac qalaraq yoxsul şəxsləri yada salıb onlara kömək etməkdir.

Bu dində kimsənin harayını eşidib ona yardım etməyən şəxs müsəlman deyil. Gecənı xalqını düşünmədən gecələyən şəxs də müsəlman sayılmır.

İslam dini ayrıseçkiliyə qarşıdır, hamı bir məqsəd və prinsip əsasında addım atmalıdır.

Kimsə digərinə zülm etməməlidir. Hamı ədalətli olmalıdır. İslam dininin əksər hökmləri bu məsələyə yönəlib.

İslam dininə görə bir nəfərin nahaqdan öldürülməsi bir xalqın soyqırımına bərabərdir.

Hz. Məhəmməd (s) əxlaqi dəyərləri tətbiq etmək üçün göndərildiyini deyir. O, Quranda hamıya örnək göstərilib. Ona görə də hamı onun kimi əxlaqlı, nəzakətli, mehriban və düz olmalıdır.

Bu dində təmizliyə, gigiyenaya önəm verilir. Hamı ətirlənməli, bəzənməli, təmizliyinə fikir verməlidir. Hz. Məhəmməd (s) o qədər ətirlənərmiş ki, qoxusunun izi ilə getdiyi yeri tapmaq olarmış. Dinimizdə dişi fırçalamaq vacib deyil, amma buna həddindən artıq təkid edilib.

Niyam Aqil




***Bildiyiniz kimi İslam dini hər bir mükəlləfə (üzərinə vəzifə qoyulan şəxsə) elm öyrənməyi vacib etmişdir. Elm öyrənmək hər bir müsəlmana vacibi-kifayidir (nə qədər ki, bu işi müsəlmanlardan heç biri etməyib, hamı buna cavabdehdir. Amma bir nəfər bu işi etməklə iş icra olsa məsuliyyət başqalarının boynundan götürülər).***

Məşhur hədisdə Həzrət Muhəmməd (s) buyurur:

**“Elm öyrənmək bütün müsəlmanlara vacibdir”.**

“Əl-Kafi” cild 1, səh 31.

Biz bu məqalədə sırf elm və onun vacibliyi haqda danışmayacağıq. Elmlə yanaşı (saleh) əməl haqqında da bəhs açacağıq. Görəsən elmlə əməl arasında nə kimi bağlılıq var? Ümumiyyətlə bu iki məfhumu müqayisə etmək düzgündürmü? Hansı daha üstündür? Elm oxu-



maq üstündür yoxsa gecəni gündüzə qatıb, yalnız Allah təbarək və təalaya ibadət etmək? Bu kimi suallara cavab verməmişdən əvvəl bir mühüm qeydi nəzərinizə çatdıraq. Hansı ki, bu qeyd olunacaq məsələyə görə bu məqaləni yazmağı qərara aldıq. Məsələ bundan ibarətdir ki, son zamanlar bəzi möminlər arasında təəccüblü fikirlər formalaşmışdır. Belə ki, bəziləri yalnız elmi kifayət bilir və əməlin elə də mühüm olmaması qənaətindədirlər. Belə şəxslər şeytana uyaraq, Allahın rəhmətinə ümid etməkdə həddi aşmışlar və asanlıqla istədikləri günahı edirlər. Təbii ki, bu kimi hallar dinimizdə qəbul edilməzdir. Digər qrup isə bunun əksi olaraq yalnız əməllə kifayətlənirlər. Bu şəxslərin düşüncələri budur ki, “əsas elm deyil. Əməlin düz olsun” yaxud “məni Allaha yaxınlaşdıran elm yox, görəcəyim saleh işlərdir” və s. kimi fikirlərlə özlərini məsuliyyətdən kənarlaşdırsınlar. Bəziləri bu kimi sözləri dillərinə gətirməsələr də öz əməlləri ilə bunu bildirirlər. Xatırladaq ki, qeyd olunan ikinci dəstə cəmiyyətdə daha çox yer almaqdadır. Elə buna görə də əsas danışacağımız tərəf məhz ikinci dəstənin fikirləri haqqında olacaq. Bu fikirlərin səbəbini qısa olaraq belə deyə bilərik ki, bu kimi fikirlərə sahib olan şəxslər həqiqətdə Qurani-Kərim və hədislərdən kənar düşmüşlər. Belə şəxslər özləri kimi adi şəxsləri özünə nümunə seçir və həqiqi nümunə olan Həzrət Muhəmməddən (s) və onun pak Əhli-Beytindən (ə) qəflətə düşürlər. Bir səbəbi də unutmayaq ki, bu kimi fikirlərin cəmiyyət içində formalaşmasında xətiblərin də “zəhməti” az deyil. Xətiblər gərək ariflər və kəramət əhli haqqında müxtəlif əhvalatlar söyləyəndə diqqətli olsunlar ki, elm ilə əməlin tarazlığını əldən verməsinlər və cəmiyyətin zehninin səhv istiqamətə yönləndirilməsinə səbəb olmasınlar. Əks halda bu kimi fikirlər çox pis hallarla nəticələnir.

Məsələyə bir az dərindən baxsaq görərik ki, əslində elm ilə saleh əməl müqayisə olunmazdır. Çünki, xalis niyyətlə elm oxumaq özü də saleh əməl sayılır və bu özü ən üstün ibadətdir. Bu sözümüzə şahid olaraq İmam Baqirdən (ə) nəql olunan bir hədislə kifayətlənirik.

İmam Baqir (əleyhissalam) belə buyurur:

**“Elm öyrənməyə çalışın, çünki elm öyrənmək gözəl əməl, onu axtarmaq isə ibadətdir”.**

“Biharul-Ənvar” cild 78, səh 189.

Bizim burada elmə baxışımız isə fərqli cəhətdən olacaq. O da budur ki, görəsən elm oxumaq üstündür yoxsa gecə və gündüz ibadət etmək? Bunun üçün təbii ki, biz Həzrəti Muhəmmədə (s) nazil olan vəhyə müraciət edəcəyik. Görəsən Allah təbarək və təala yanında hansı dəstə üstün sayılır? Yalnız saleh əməllər etmək yoxsa bununla yanaşı elmə də sahib olmaq lazımdır?

Müqəddəs kitabımız - Qurani-Kərimə əsasən Allah təbarək və təalaya olan mərifət elm qapısından keçir. Elmsiz insanın Allaha mərifəti kamil ola bilməz. Cəhalət içində olan bir şəxsin aləmlərin Rəbbi olan Allaha necə kamil mərifəti ola bilər axı? İddia etdiyimiz fikir haqqında Allah təbarək və təala kitabında belə buyurur:

**“Allahdan Öz qulları arasında ancaq alimlər qorxarlar”**. (Fatir, 28)

Ayədən başa düşülən budur ki, insan öz qəlbində Allah qorxusunun toxumunu yalnız elm vasitəsilə səpə bilər. İnsanın bu hissi öz ruhunda yerləşdirməsi və öz Rəbbinə mərifət kəsb etməsi üçün elmdən başqa yol yoxdur. Həmçinin, Allah təbarək və təala alim olan şəxsləri

daha üstün qərar verib. Elm, Allahın bir xəzinəsidir və bəndələrindən istədiyinə bəxş edər. Allah istədiyini ucaldar necə ki, elm əhlinin uca olmasını iradə edib. Allah təbarək və təala belə buyurur:

De: **"Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi? Bundan ancaq ağıl sahibləri düşünüb ibrət alarlar"** (Zumər, 9)

Elmin əksi olan cəhaləti Allah təbarək və təala öz müqəddəs kitabında məzəmmət edir və bizlərə bunun çox təhlükəli bir qüvvə olduğunu işarə edir:

**"Şübhəsiz ki, çoxları elmsiz (cahil) olduqları üçün öz istəklərinə uyub insanları doğru yoldan azdırırlar. Həqiqətən, sənin Rəbbin həddi aşanları daha yaxşı tanıyır".** (Ənam, 119)

Bu ayə cəhalətin nəinki şəxsin özünə, hətta cəmiyyətə belə böyük zərər vurmasından söz açır. Həmçinin, cəmiyyəti necə fəsada və zəlalətə sürükləməsini aşkar surətdə bizə bəyan edir.

Allahın Kitabına müraciət etdikdən sonra keçirik bu müqəddəs Kitabın həqiqi mufəssirləri olan Həzrət Peyğəmbər (s) və onun pak Əhli-Beytinin (ə) mübarək kəlamlarına. Təbii ki, elm haqqında bizə gəlib çatmış hədislərin hamısını bu məqalədə qeyd etmək mümkün deyil. Bu barədə hədislər həddən artıq çoxdur. Lakin biz burada sırf mövzumuza uyğun olan seçmə hədisləri qeyd edəcəyik.

Elmin əhəmiyyəti, xeyri və üstünlüyü haqda olan hədislər.

Allah Rəsulu Həzrət Muhəmməd (s) elmin zəruriliyi haqqında belə buyurur:

**"Elmə can atmaq hər bir müsəlmanın vəzifəsidir. Həqiqətən Allah elmə can atanları sevir"**

"Əl-Kafi", "Elmin fəziləti" kitabı, hədis 22

Həmçinin elm öyrənməyin mənfəət və faydaları haqqında da bizlərə bir çox hədislər yetişmişdir. Bu kimi hədislər bizlərə səadət yolunun yalnız elm qapısından keçdiyini bildirir. Bu hədislərin bir qismini sizlərə təqdim edirik.

Həzrət Peyğəmbər (s) buyurmuşdur:

**"Alimlər və elm öyrənənlər savabda şərikdirlər, yerdə qalan camaat isə xeyir və səadətdən məhrumdurlar."**

"Biharul-ənvar" cild 2, səh. 25.

Həzrət (s) yenə buyurur: "Dünya və axirət xeyri elm ilə yanaşıdır".

"Biharul-Ənvar" cild 1,/səh 204.

Bəşir əd-Dihhan İmam Sadiqin (ə) belə dediyini nəql edir: **"Ey Bəşir! Bizim səhabələrdən (ardıcıllardan) dində dərin anlayış sahibi olmayan kəslərdə xeyir yoxdur. Bizdən hər hansı bir kəs dində dərin anlayış sahibi (elm əhli) olmayınca, onlara (yəni qeyri şiələrə) möhtac olar. Onlara möhtac olduqda, onlar (qeyri-şiələr) özü də bilmədən onu (şiəmizi) öz azğınlıq qapılarından içəri salarlar".**



"Əl-Kafi", cild 1, səh. 33, hədis 6.

Elmin əksi olan cəhalət hədislərdə tənbeh edilir. Bir müsəlman şəxsin elm haqqında axtarış aparmaması İmamlarımız (ə) tərəfindən böyük qınağa səbəb olar. Nümunə olaraq bu barədə sizə iki hədis təqdim edirik:

Muhəmməd ibn Muslim nəql edir ki , İmam Sadiq və İmam Baqir (ə) buyurur :

**"Əgər mənim yanıma (dini) elm öyrənmək istəməyən bir gənc şiə gətirsələr, onu bu işinə görə tənbeh edərəm".** "Bərqi Məhasin" cild 1 , səh 228 , hədis 160.

Əban ibn Təğlib İmam Sadiqin (ə) belə dediyini nəql edir:

**"Səhabələrimin dində dərin anlayışa (elmə) yiyələnənə qədər başlarına qırmacla vurulmasını istəyərdim".**

"Əl-Kafi", cild 1 səh. 31, hədis 8

İndi isə keçirik elmin hər şeydən daha fəzilətli olduğunu bəyan edən aşkar hədislərə. Elm gecə və gündüz olunan ibadətdən daha üstündür. Elmsiz ibadətin o qədər də əhəmiyyətli olmadığını Həzrət Peyğəmbər (s) və imamlar (ə) bizə bir çox hədislərlə bildirmişlər. Onlardan bir qismini sizlər üçün qeyd edirik.

Həzrət Peyğəmbər (s) buyurur: **"Elm ibadətdən daha üstündür".** "Kənzül-ümmal" xəbər, 2857.

**"Elmin fəziləti Allah yanında ibadətin fəzilətindən daha əzizdir".** "Biharul-Ənvar" cild 1, səh 167.

**"Elm məqsədilə el-obasını tərk edən və əldə etdiyi həmin elmlə batili haqq və zəlaləti hidayət ilə əvəz edən şəxsin gördüyü iş abidin qırx illik ibadətinə bərabərdir".**

"Kənzül-Ümmal" xəbər, 28835.

"Elm və agahlıq ilə yatmaq, cəhl və nadanlıqla namaz qılmaqdan daha yaxşıdır".

"Kənzül-Ümmal" xəbər, 28711.

**"Allah–taala elmə yiyələnməyi namaz, oruc, həcc və Onun yolunda cihad etməkdən daha üstün tutur".**

"Kənzül-Ümmal" xəbər, 28655.

**"Gecənin qaranlığında ay öz nuru ilə digər ulduzlardan işıqlı olduğu kimi, alim də öz elmi ilə başqalarından çox fərqlənir".**

"Biharul-ənvar" cild 1, elm kitabı.

**"İmam Baqir (ə) buyurur: "Bir saat elm ilə məşğul olmaq, gecəni sübhədək ibadətlə keçirməkdən daha yaxşıdır".**

"Biharul-ənvar" cild 1, elm kitabı

İmam Əli (ə) buyurur: "Elm öyrənmək üçün səy edənlər Allah yolunda cihad edən şəxs kimidir".

"Biharul-Ənvar" cild 1, səh 179.

İmam Sadiq (ə) buyurur ki, Peyğəmbər-Əkrəm (s) belə buyurmuşdur: "Elmin fəziləti Allah yanında ibadətin fəzilətindən artıqdır".

"Biharul-Ənvar" cild 2, səh 118.

**İmam Baqir (ə) buyurur: "Elm sahibi ibadət edəndən beş yüz illik məsafə qədər qabaqdadır".**

"Biharul-Ənvar" cild 2, səh 18.

Alimlərimiz saleh əməli Allaha doğru gedən yol, elmi isə bu yolun çırağına bənzədiblər. Gərək müsəlman şəxsin elmi ilə yanaşı əməli də olsun. Bunlardan biri təklikdə insana heç bir fayda verə bilməz. Əqidəmizə görə biz orta həddi tutaraq şəxsin həm elm oxumasının, həm də öz elminə əməl etməsinin tərəfdarıyıq. Budur İmamların (ə) bizə öyrətdiyi haqq əqidə. Elm və əməlin hər ikisi bir quşun qanadlarına bənzəyir. Necə bir quş bir qanadı ilə səmada uça bilmirsə, həmçinin müsəlman olan şəxs də bunların biri olmadan Allah təbarək və təalaya mərifət kəsb edə və axirət səadətinə qovuşa bilməz. İndi isə əziz oxuculara elmlə bərabər əməlin də zəruriliyini bildirən hədisləri təqdim edirik.

### Elm və əməl haqda olan hədislər

Həzrət Peyğəmbər (səllallahu aleyhi və alihi və səlləm) buyurur:

**"Elm Allahın yer üzündə qoyduğu əmanət, alimlər isə Allah elminin əmanətdarlarıdır. Hər kəs öz elminə əməl etsə, həqiqətdə əmanəti layiqincə sahibinə qaytarmışdır".** "Biharul-Ənvar" cild 2, səh 36.

İmam Sadiq (ə) buyurur:

**"Hər kəs elm öyrənib ona əməl etsə və Allahın rizası üçün başqalarına öyrətsə, asimanların mələkut aləmində əzəmətlə yad edilər".**

"Əl-Kafi" cild 1, səh 35.

Əhməd ibn Muhəmməd ibn Həsən nəql edir: İmam Sadiq (ə) dedi:

**"Həqiqətən, Əlinin (ə) ardıcıllarının qarınları boş və dodaqları quru idi. Onlar mərhəmət, elm, mülayimlik əhlidirlər və təqvalı olmaqları ilə tanınırlar. Buna görə riayət etdiyiniz şeylərdə dindarlıq və səy göstərməkdən kömək alın".**

"Sifatuş-şiə" hədis 18.

İmam Əli (ə) buyurur:

"Bir şəxsin hikmətli bir söz eşidib ona əməl etməsi və ya başqalarına danışması bir illik ibadətdən daha yaxşıdır". "Nəhcül-Bəlağə"

İmam (ə) buyurur: **"Öz elmindən bəhrələnən alim yetmiş min abiddən daha üstündür"**

"Biharul-Ənvar" cild 2, elm kitabı.

İmam Əli (əleyhissalam) buyurur: **"Ey mömin! Sənin canının qiymət və dəyəri bu elm və ədəbdir. Odur ki, bu iki şeyi əldə etməyə çalış! Çünki elm və ədəbin hər nə qədər artsa, qədir-qiymətin də bir o qədər artar".**

"Mişkatul-Ənvar" səh 135.

Quran və hədislərdən aldığımız nəticə budur ki, insan gərək daim elm axtarışında olsun və özünü cəhalət bataqlığında qərq olmaqdan qorusun. Çünki, kim belə olmasa hər vaxt haqq yoldan aza bilər və özünü əbədi bədbəxtçiliyə sürükləyər. Allah bizləri elmi Quran və Əhli-Beytdən (ə) götürənlərdən və ona əməl edən alimlərdən qərar versin.

Anar Əhmədov

## Ayətullah Behcət Təqi
# NAMAZIN SİRLƏRİ HAQQINDA

1. Namaz ubudiyyətin böyük nişanələrindəndir ki, orada Haqqa diqqət edilər.

2.Bütün ləzzətlər ruhidir. Onun ən üstün mərtəbəsi – namazdadır.

3. Qürbün mərtəbələri vardır. Onların ən yüksəyi – liqadır. Qürbün hər mərtəbəsinin yaxınlaşdıranı vardır ki, onların ən alisi – namazdır.

4.Namaz – möminin meracıdır. Merac isə liqa və qürb istəyir. Mömin Onunla liqadan sonra Allahdan qeyrisinin sorağına getməz və onun haqqında heç düşünməz belə.

5. Bizim əzəmətimiz yoxdur. Ayaq üstə dayandığımız qədər əzəmətimiz vardır. O zaman ki, rükuya gedərik, yarı olarıq. Sonra da səcdəyə gedib, torpağa geri dönərik.

6. Ola bilsin ki, namazı təkrar etməyin hikməti seyr olsun. Belə ki, hər namaz əvvəlki namazdan daha yaxşı və əvvəlki namaz sonrakı namazın zəminəsi olsun.

7.Bəndənin namazda qiyam etməsi ubudiyyətin bəyanıdır. Səcdə – təvazökarlığın son həddidir.

8.Namazı islah etmək batin və zahiri islah etməyi zəruri edir və həmçinin zahiri və batini münkərlərdən uzaq olmağı. Namazı islah etməyin yollarından biri – namaza başlayan zaman İmam Zaman ağaya (ə.f) ciddi şəkildə təvəssül etməkdir.

9. "Ənkəbut" surəsinin 45-ci ayəsindən belə görünür ki, namaz insanı çirkin və bəyənilməyən işlərdən saxlayar.

10. Qəlb hüzurunun amillərindən biri budur ki, 24 saat ərzində gərək hisslərini kontrol edə biləsən. Qəlb hüzuru əldə etmək üçün gərək müqəddimələri hazır edəsən. Gün ərzində gözünü, qulağını və başqa üzvlərini kontrol edəsən.

11. O namazı ki, cəhənnəm qorxusu ilə qamçı vurularaq qılırıq, övliyalar deyir ki, hər şeydən daha ləzzətlidir.

12. Bu sadə əməl bəzilərini səmaya qaldırar, bəziləri üçün isə heç bir xəbər yoxdur. Bəziləri üçün Əla illiyindir, bəziləri üçün isə məlum deyildir ki, bu məcun şirindir, yoxsa acı.

13.Namaz qılmaq – bunun əhli üçün halva yemək kimidir. Ona görə də namaz qılmaqdan yorulmazlar.

14. İmam Əlinin (ə) kəlamında deyilir ki, bil ki, bütün əməllərin namaza tabedir. Müşahidə etmişəm ki, böyük alimlər namaz vaxtı qəribə olurlar. Sanki o insan namazdan xaric deyildir.

15. İbadətin zövq almaq qabiliyyəti vardır. Ancaq biz ibadəti elə yerinə yetiririk ki, sanki başımızın üstündə şallaq vardır. Sanki çarəsiz qalıb acı dərman içirik.

16. Namazın əsl meyarı odur ki, ən ali zikrdir. Ən şirin zikrdir. Ən üstün zikrdir. Hər şey namaza tabedir. Gərək çalışaq ki, namazı düzəldək. O zaman ki, namaz düzələr, insan adam olar.

17. O zaman ki, bəndə Allah Təalanın müqəddəs dərgahından qayıdar, sovqat gətirdiyi ilk şey – Onun tərəfindən olan salamdır.

18. Namazda Allahı zikr etmək ən yaxşı zikrdir. Çünki namaz – Kəbə kimidir. Namazqılan Kəbəyə daxil olaraq qərara alır ki, təkbir qapısından girib, təslim qapısından çıxacaq.

Dəyərlər.org



# Çətinlik və sınaqlar qarşısında nə edək?

**Yaşadığımız dünya həyatı hər kəsə özünün fərqli üzünü göstərir. Diqqətlə baxsaq görərik ki, insan dünyada daim sınaqlar ilə yoxlanılır, acı və xoşagəlməz hadisələr ilə rastlaşır. Bu dünya yaşayışının təbii xüsusiyyətidir. Dünyada heç bir problem olmadan yaşamaq mümkün deyil. Dinindən, dilindən, yaşadığı ölkə və şəhərdən, tutduğu vəzifədən asılı olmayaraq hər bir insan bu dünyada müxtəlif çətinliklər ilə rastlaşır.**

İslam dininə görə dünyadakı xoşagəlməz hadisələrin müxtəlif səbəbləri var. Bəzən insanın günahı qarşılığında Allah onu çətinliyə salır ki, qəflət yuxusundan ayılıb, düz yola yönəlsin. Bəzi vaxtlar isə insan o həddə günaha aludə olur ki, Allah-taala onu cəzalandırır. Hər halda islam dininə görə dünyadakı xoşagəlməz hadisələrin bir çoxu insanın etdiyi günahlar nəticəsində baş verir. Necə ki, Allah kitabında buyurur: "İnsanların öz əlləri ilə etdiyi əməllərinin nəticəsi olaraq quruda və dənizdə fəsad törəyir ki, (Allah) onlara, etdiklərinin bir qismini daddırsın. Bəlkə, onlar (haqqa) qayıdalar". (Rum,41).

Allah, Peyğəmbər (s) və İmamlar sınaq və çətinliklər zamanı necə davranmağımızı bizə öyrədir. Əgər islam maarifində olan məsləhət və nəsihətləri diqqətlə mütaliə edib onlara əməl etsək, sınaqlar qarşısında düzgün dayanmağı öyrənib imtahanlardan başı uca çıxa bilərik. Çətinliklərə qalib gəlmək və onlar qarşısında sınmamaq üçün islam dini bizə bir çox yollar öyrədib ki, aşağıda həmin vasitələrdən bəzisini gətiririk.

**1- Səbr etmək**

Sınaqlar qarşısında insana kömək edən ən təsirli amil səbrdir. Bunu heç kim inkar etmir ki, bütün işlərdə səbr etmək bəyənilən işdir. Çətinliklər bizə üz tutduğu zaman səbr etmək ən effektli vasitədir. Allah-taala bu barədə buyurur: "Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbr edənlərə müjdə ver". (Bəqərə,155).

Həmçinin İmam Əli (ə) buyurur: "Təəccüb edirəm o şəxsə ki, xəstələndiyinə görə həddən artıq səs-küy salır və etiraz edir. Belə ki, əgər o, həmin xəstəliyin qarşısında qazandığı savabın miqdarını bilsə, ölənə qədər xəstə olmağını arzu edərdi".

**2- Dünya həyatının və eləcə də dünyadakı çətinliklərin müvəqqəti olduğunu düşünmək**

Əgər bu dünyaya olduğu kimi baxsaq və dünyanın müvəqqəti bir yaşayış yeri olduğunu dərk edib qəbul etsək, təbii ki, onun sınaqları və çətinliklərinin də müvəqqəti olduğunu qəbul edərik. Bu düşüncə səbəb olar ki, sınaqlar qarşısında insan başı uca dayansın.

İmam Əli (ə) Bəqərə surəsinin 156-cı ayəsinin "O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!"– deyirlər" izahında buyurur: "Biz, Allaha məxsusuq" cümləsi, bu həqiqəti çatdırır ki, bizim hamımız Allaha məxsusuq və "Və Ona da qayıdacağıq" cümləsinin mənası isə budur ki, biz bu dünyadan gedəcəyik və bizim qalacağımız yer, başqa bir aləmdir. ( Yəni axirət aləmi).

Hədisə diqqət yetirsək, dünya yaşayışının və onda baş verən müsibətlərin ötəri olduğu açıq şəkildə bildirilir.

**3- Allaha iman**

Allahın varlığına inanmaq, insanın həm dünya işlərinə və həm də axirət aləmindəki yaşayışı üçün bir çox faydası var. Hədislərə görə, qəbrdə dünyasını dəyişmiş insandan soruşulan ilk sual, "Allahın kimdir" sualı olacaq. İnsan Allahın varlığına inansa və onu düzgün tanısa, yaşayışındakı bütün çətinliklər ona ağır və dözülməz bir yük kimi görsənməz. Çünki Allahı olduğu kimi tanıyıb qəbul etmək, insana mənəvi və psixoloji güc verər və həmin bu güc sınaqlar qarşısında dik durmağa yardım edər. Allah buyurur: Uğrumuzda cihad edənləri mütləq Öz yolumuza yönəldəcəyik. Şübhəsiz ki, Allah xeyirxah əməl sahiblərilədir. (Ənkəbut,69).

Ayədən açıq şəkildə başa düşülür ki, Allahın yardımı, onu tanıyıb, xeyirxah işlərlə məşğul olanlara şamil olacaq.

**4- Keçmişdəki insanların çətin sınaqlarını yada salmaq**

Tarixi mütaliə etməklə insan bir çox faydalı məlumatlar əldə edə bilər. Tarix o qədər önəmli məsələlərdən biridir ki, hətta müqəddəs kitabımız Quranda belə bu sahəyə geniş yer ayrılıb. Belə ki, keçmişdə baş vermiş bir çox hadisələr Qurani-kərimdə açıqlanır. Hətta Qurandakı 114 surədən birinin adı, "Qəsəs", yəni qissələr surəsidir. Quran tarix kitabı deyil, amma Allah bu kitabda bəzi tar-

ixi hadisələrdən danışır ki, oxuyub eşidənlərə ibrət olsun.

Bəli, ağır və acı hadisələr qarşısında sınmamaq, düz yolu seçib qabağa getməyə kömək olan vasitələrdən biri də keçmişdəki insanların başına gələn hadisələri mütaliə etməkdir.

Hikmət sahibi olan Rəbbimiz Peyğəmbərə (s) xitabən buyurur: "Səndən əvvəlki elçiləri də yalançı saymışdılar. Lakin Bizim köməyimiz onlara gələnədək yalançı sayılmalarına və onlara əziyyət verilməsinə səbr etdilər. Heç kəs Allahın kəlmələrini dəyişə bilməz". ( Ənam,34).

**5- İnanmalı və başa düşməliyik ki, bu hadisələrin hər biri Allahın hüzurunda baş verir və O, hər şeydən agahdır**

Bütün varlıq aləminin həqiqi sahibi Allahdır və O, hər şeyi görür, eşidir və hər bir şeyə qadirdir. Əgər bunlara inansaq və bu təfəkkür tərzi ilə yaşasaq zahirdə çətin görsənən hadisələr bizə o qədər də ağır gəlməz. Əlbəttə ki, bu baxışa yiyələnmək yalnız iman yolu ilə mümkündür. Dünyaya səs salmış və əsrlər keçməsinə baxmayaraq hələ də unudulmayan "Kərbəla" hadisəsindəki imam Hüseynin (ə) buyurduğu cümləni buna misal gətirmək olar. Bu acı hadisəyə bir tək müsəlmanlar yox, əksinə digər dinin tanınmış davamçıları da biganə qalmayıb öz ürək ağrılarını hüzn və qəmqüssələrini gizlədə bilməyiblər.

İmam Hüseyn (ə) buyurur: "Bütün bu işlər Allahın elm gözü qarşısında baş verdiyini bildiyim üçün olanlara səbr etmək mənə asandır".

Kərbəlayi Elçin Əliyev

# Namaz qılmağın nə faydası var?



**Bizim Allah Təala qarşısındakı əsl vəzifəmiz nədir?**

Varlıq aləminin xilqəti və peyğəmbərlərin (ə) bəsəti məhz ibadət üçün həyata keçmişdir. Allah buyurur: "Cin və insanları yalnız Mənə ibadət etmələri üçün yaratmışam". ("Zariyat" 56).

Bütün peyğəmbərlərin (ə) əsil vəzifəsi – insanları ibadət etməyə dəvət etmək olmuşdur. Allahın bizim ibadətimizə ehtiyacı yoxdur. Bilmək lazımdır ki, ibadətin mənfəəti, ancaq onu yerinə yetirənə şamil olar.

Əllamə Təbatəbai yuxarıdakı ayənin təfsirində buyurur: "Allah Təala insanı yaratmışdır ki, ona savab versin. Məlumdur ki, ibadətin savabı da insanın özünə şamil olar.

Bu, insandır ki, həmin ibadətdən bəhrələnər, nəinki Allah. Çünki Allah insanların ibadətindən ehtiyacsızdır. İnsana ona görə savab verər ki, özü Allahdır. Ona görə də savab – Allah kamalını isbat edən əməldir. Bu səbəbdən insan xilqətinin hədəfi – ibadətdir. O kamaldır ki, ancaq insana aid olar.

İbadət həm hədəfdir və həm də Allahın rəhmət və məğfirətidir".

Şəhid Mütəhhəri ibadət haqqında buyurur: "Yeganə Allahı – ən kamil zat, hər cür nöqsandan pak bir varlıq və yer üzərini yaradan, ona feyz verən bir varlıq kimi tanımaq, insanda çox güclü bir reaksiya yaradar ki, ona pərəstiş deyərlər.

Pərəstiş, insanın öz Yaradanı ilə bərqərar etdiyi müti, şakir bir rabitədir. İnsan bu cür rabitəni ancaq Allahı ilə bərqərar edər".

Əllamə Təbatəbai ibadət haqqında buyurur: "İbadətin həqiqəti budur ki, bəndə özünü zillət məqamında və ubudiyyət məqamında qərar verər. Üzünü Allaha tərəf çevirər.

Ona görə də deyə bilərik ki, insan xilqətinin əsil hədəfi – ibadətin həqiqətidir. Yəni odur ki, bəndə özünü hər şeydən ayırar, Allahı yada salar və Onu zikr edər".

Şəhid Mütəhhəri buyurur: "Əgər biz ibadət ediriksə və bu ibadət də təkrarlanan ibadətdirsə – namaz kimi – bu, həqiqətdə nə üçündür? Bəlkə ona görədir ki, həmişə yadımızda olsun ki, bəndəyik və Allahımız vardır.

Bəzən insanlar soruşurlar ki, bizim namaz qılmağımızın nə faydası vardır? Allah üçün nə faydası vardır?

Namaz ona görədir ki, Allah yadımızdan çıxmasın. Yəni, Allahın mövcudluğu həmişə bizimlə olsun. Qəlbimizdə mövcud olsun. Yadımızdan çıxmasın ki, biz bəndəyik və xilqətimiz əbəs yerə deyildir.Əgər bəndəyiksə, vəzifə və təklifimiz vardır".

Bu deyilənlərdən belə nəticəyə gəlmək olur ki, ibadətin fəlsəfəsi – Allah qarşısında təslim olmaqdır. Onun zikrini və mövcudluğunun dərkini canlı saxlamaqdır. Hər bir ibadətin isə özünəməxsus həqiqət və fəlsəfəsi vardır. Misal üçün, Qurani-Kərim namaz haqqında buyurur ki, namaz insanı fəhşa və münkərdən saxlayar. Namaz Allahı yada salmaq üçün yerinə yetirilər.

Oruc haqqında buyurar ki, oruc sizə ona görə vacib olmuşdur ki, təqva əhli olasınız.

Zəkat haqqında buyurur ki, zəkat insanların mallarını və ruhlarını paklayar.

İmam Əli (ə) buyurur: "Allah, imanı, şirkdən pak olmaq üçün vacib etmişdir. Namazı, təkəbbürdən pak olmaq üçün vacib etmişdir".

Beləliklə deyə bilərik ki, ibadətin fəlsəfəsi odur ki, bəndə olduğumuzu, Allahımızın olduğunu yaddan çıxartmayaq və bilək ki, bizi yaradan vardır və Ona ibadət etmək ancaq bizə fayda verər. Çünki, Allahın bizim ibadətlərimizə ehtiyacı yoxdur. O, Kamil Mütləqdir. Biz isə zəlil bəndə.

# MÜSƏLMANIN DÜNYASI HAQQINDA

**Bəzən əşyaların dekorasiyası (qoyuluş tərzi, yeri) düz olmaz deyə otağımız belə darısqal görünər. Bu işin mütəxəssisi cəmi 2-3 dəyişikliklə, məsələn, mebelin yerini ayna ilə, divanın yerini masa ilə dəyişərək, otağı elə genişləndirər, elə gözəl hala salar ki, əlimiz ağzımızda qalar:**

ilahi, bu ki tamam başqa otaqdır...

Məsələn, tənhalıq, təklik, darıxmaq, sıxıntı, ətrafımızdakı insanlar... bəzən narahatlıq onların çox ya azlığı deyil, miqdar kafidir, sadəcə düzgün "dekorasiya" olunmayıblar; sənə çox yaxın olmalı olan çox uzaqda, uzaqda dayanmalı olan çox yaxındadır; sağında olması gərəkən solunda, qarşında olması gərəkən arxandadır...

Təsəvvür elə həyatını bir mütəxəssisə göstərirsən, o da vəziyyəti incələyib belə deyir: "Oğlum, problemin kökünü tapdım, bax, bu adam var e bu adam, onu burdan götür, çək, çək, çək, bir az arxaya qoy, bunu həyatının tən ortasına qoymusan deyə aləm qarışıb bir-birinə". Sən də təəccüblənirsən: "Bıyy, müəllim, elə bu?" O da cavab verir: "Bəli, bəzən bircə manevr belə hər şeyi yoluna qoya bilir".

Və ya mütəxəssis bir başqasının həyatına baxır və belə deyir: "A kişi, bu nədir? Bu dəyərdə, bu gözəllikdə olan bir adamı həyatın görsənməyən küncündə gizlədərlər heç? Sənin başına hava gəlib? Tez ol, çək, çək onu, çək gətir bura -mərkəzə".

Bəli, məncə, məsələ budur - ətrafımızdakıların düzgün dekorasiya olunmaması. Otaqda hər şey var, nə kənardan yeni bir şey alınmalı, nə hansısa əşya çölə atılmalı. Sadəcə düzgün dekor olunmalı, vəssəlam!

Sizə düzünü deyirəm, çox vaxt dekorasiyanın mütənasibsizliyidir bizi tənha hiss etdirən. Şair nə deyirdi, dünyada bu qədər yalnız varkən, niyə dünyada bu qədər yalnız var? Niyə axı, niyə? Çünki dünyamızın dekorasiyası düzgün deyil.

Lap olsun dəyərlərin düzülüşü; əcəba hansı dəyər bizim həyatımızda birincilik təşkil edir? Hansı dəyər həyatımızın harasına qoyulub? Hansı dəyər ən əsasdır? Bax, bunları bircə-bircə araşdırmaq lazım. Ana, ata, bacı, qardaş, sevgili, həyat yoldaşı, övlad, vətən, torpaq, haqq, həqiqət, dünya, axirət... bunlar hamısı həyatımızdakı dəyərlərdir, fəqət hansı hara qoyulub? Hərəsi öz yerindədirmi, yoxsa darmadağın, bir-birinin üstündə?

Məsələn, İslam dininin bu qədər mütərəqqi təlimləri varsa, gerçəkdən də varsa, bəs niyə müsəlman dünyası bu gündədir? Sizcə niyə? Məncə yenə, yenə dekorasiya məsələsi; bəli, bu təlimlər var, amma onların düzülüşü yanlışdır: birinci olmalı olan təlim sonuncu, sonuncu olmalı olan birincidir.



Məsələn, elm, kitab, təhsil. Allah öz kitabını "oxu"yla başlayıb, əzizim, bundan artıq necə anlatsın elmin ən birinciliyini? Yaxşı, bəs "oxu" müsəlmanın həyatında hardadır? Neçənci yerdə? Görürsüz? Məsələ budur. Təlimlərin var olması kifayət deyil, düzülüşləri yanlışsa, nə fərqi? Dekorasiyası düzgün deyilsə ən ali təlimlər belə xaosdan başqa təsir bağışlamayacaq. Dərd budur.

Ədalət prinsipi qədər ikinci vacib bir prinsip varmı əziz İslamımızda? Amma müsəlmanın həyatında hardadır o, neçənci yerdədir? Müsəlmanı elə hala salıblar ki, bütün ömrünü, gününü, enerjisini yalnız namazının sözlərini düz deməyə həsr edir. Bəzən elə yekə adamlar görürəm ki, namazda filan hərfi filan yerdə düz tələffüz etməkçün əldən-ayaqdan gedir, narahatdır, nigarandır... olsun, di gəl ki, həyatına baxırsan heç nə!

Ədalət hər şeyin, hər kəsin öz layiq olduğu yerdə olmasısa, demək, ən böyük ədalətsizlik elə islam təlimlərinin üzərində baş verib.

Məsələn, imam Hüseyn (ə) Aşura hərəkatını dəyərləri qorumaqçün yaratmamışdı, dəyərlər onsuz da vardı axı, nə silinmişdi ki islamdan? İmam sadəcə dəyərlərə (təlimlərə) dekor, doğru düzülüş vermək istəmişdi, daha konkert desək, kölgədə qalan ədalət prinsipini layiq olduğu yerə çəkmək istəmişdi, demişdi ki, bu, ən əsasdır, demişdi ki, hər şey və hər kəs yalnız öz yerində olanda var olur, və illa, yerində olmayanı ölülərdən say getsin!

Yaxşı, elə isə, İslamda reforma gərək varmı? Əlbəttə ki xeyr. İslamda dekorasiyaya gərək var. Mən o islahatçının əlini öpəcəm ki, gəlsin və təlimlərin dekorasiyasını düzəltsin, gerisi öz-özünə düzələcək.

Yəni bəzən əşyaların dekorasiyası (qoyuluş tərzi, yeri) düz olmaz deyə otağımız belə darısqal görünər. Bu işin mütəxəssisi cəmi 2-3 dəyişikliklə, məsələn, mebelin yerini ayna ilə, divanın yerini masa ilə dəyişərək, otağı elə genişləndirər, elə gözəl hala salar ki, əlimiz ağzımızda qalar: ilahi, bu ki tamam başqa otaqdır...

İlqar Kamil



# ORUCUN

## ƏHƏMİYYƏTİ VƏ FAYDALARI

Allah-Taala Qurani-Kərimin "Bəqərə" surəsinin 183-cü ayəsində oruc haqda belə buyurur:

يا أَيهَا الَّذِينَ آمَنُوا كُتِبَ عَلَيكُمُ الصِّيامُ كَما كُتِبَ عَلَى الَّذِينَ مِن قَبلِكُم لَعَلَّكُم تَتَّقُونَ

"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) ola bilsin təqvalı olasınız!"

"Oruc" lüğətdə "imsak" və hər bir şeydən çəkinmə mənasını ifadə edir. Fiqh leksikonunda isə, Allah-Taalanın əmrini yerinə yetirmək məqsədilə sübh azanından şam azanına qədər orucu batil edən doqquz işdən çəkinməyə "oruc" deyilir. (Orucu batil edən doqquz iş bunlardır:

1. Yemək-içmək; 2. Cima (cinsi əlaqə); 3. İstimna (spermanın xaric olmasına səbəb olan müəyyən bir iş görmək); 4. Allah, Peyğəmbər (s) və onun Əhli-beytinin (ə) adından yalan demək; 5. Qəliz tozu boğaza çatdırmaq; 6. Başı suya batırmaq; 7. Sübh azanına qədər cənabət, heyz və nifas halında qalmaq; 8. Axıcı (maye) şeylərlə imalə etmək; 9. Bilərəkdən qusmaq.

Tarixdə bir çox şahidlər gözə dəyir ki, oruc yəhudi, məsihi və digər qövm və millətlər arasında da mövcud olmuşdur. Onlar çətinliklər və müsibətlərlə üzləşdikdə, tövbə etmək və Allahın razılığını qazanmaq istədikdə, oruc tutur və bununla Onun dərgahında öz acizliklərini və günahkar olduqlarını etiraf edirmişlər. "İncil"dən həzrət İsa Məsihin (ə) qırx gün oruc tutduğu göstərilir ("Təfsiri-nümunə", 1-ci cild, səh.633.) və Qurani-Kərimdə açıq-aşkar buyurulur ki, bu ilahi fərizə keçmiş ümmətlərə də vacib olunmuşdur. (Bəqərə" surəsi, ayə 183.)

Orucun insana bir sıra maddi-mənəvi fayda və təsirləri vardır ki, biz burada onlardan bir neçəsinə işarə etməklə kifayətlənirik:

1. Oruc nəfsin günahlardan, çirkin və rəzilliklərdən təmizlənməsində, ruhun təkamülü, insani keyfiyyətlərlə zinətlənməsində əsaslı təsirə malikdir. Oruc tutan şəxs günahları tərk etməklə "nəfsi-əmmarə"ni cilovlayıb nəzarət altına alır və öz ixtiyarına keçirir. Oruc tutulan günlər günahın tərki və nəfslə mübarizə üçün bir məşqdir. Orucluq müddətində insan öz nəfsini günahlardan və çirkinliklərdən paklamaqla, yemək-içmək kimi halal ləzzətlərə göz yumur və beləcə, öz nəfsinə səfa və nuraniyyət verir. Bir sözlə, orucun təqvalı olmaqda rolu böyükdür. Buna görə də Qurani-Kərim orucun şəriət qanunu şəklinə salınmasını təqva əldə olunmasından ötrü əsas amil hesab etmiş və "...bunun vasitəsilə ola bilsin təqvalı olasınız." – deyə buyurmuşdur. İmam Rza (ə) necə də gözəl buyurmuşdur:



إِنَّمَا أُمِرُوا بِالصَّوْمِ لِكَيْ يَعْرِفُوا أَلَمَ الْجُوعِ وَ الْعَطَشِ فَيَسْتَدِلُّوا عَلَى فَقْرِ الْآخِرَةِ

"İnsanlar oruc tutmağa əmr olunmuşlar ki, aclıq və susuzluq acısını dadsınlar və onun vasitəsilə axirət səfalətini dərk etsinlər." ("Vəsailuş-şiə", 4-cü cild, səh. 4, hədis 5; "İləluş-şəraye", səh.10.)

2. Oruc yoxsul və varlı təbəqələr arasında bərabərlik prinsipini qoruyur və oruc tutan şəxs aclıq-susuzluğu dadmaqla yoxsulları və cəmiyyətin məhrum təbəqəsini xatırlayır, onların haqqını vaxtlı-vaxtında ödəyir. İmam Sadiq (ə) buyurur:

إِنَّمَا فَرَضَ اللهُ (عَزَّ وَ جَلَّ) الصِّيَامَ لِيَسْتَوِيَ بِهِ الْغَنِيُّ وَ الْفَقِير

"Allah-Taala orucu vacib etmişdir ki, onun vasitəsilə zənginlə yoxsul bərabərləşsin." ("Mən la yəhzuruhul-fəqih", 2-ci cild, hədis 1766-1769.)

3. Oruc gigiyenik və müalicəvi təsirlərə, cismin sağlamlığında böyük rola malikdir. Necə ki, əziz Peyğəmbərimiz (s) buyurmuşdur:

صُومُوا تَصِحُّوا

"Oruc tutun ki, sağlam olasınız." ("Biharul-ənvar", 59-cu cild, səh.267.)

Məşhur rus alimi Aleksey Soforin özünün "Müalicənin yeni üsulu – oruc" kitabında yazır: "Orucla müalicə ecazkardır və oruc tibb elminin qarşısında yeni yollar açır. Bir çox xəstəliklərin müalicəsi üçün oruc tutmaq məsləhət görülür və orucun qan azlığı, ürək, qan-damar sisteminin yeniləşməsi, ifrazat sistemi, böyrək, ciyər, göz və s. xəstəliklərə təsiri olduqca böyükdür. Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur:

لِكُلِّ شَيْءٍ زَكَاةٌ وَ زَكَاةُ الْأَبْدَانِ الصِّيَامُ

"Hər bir şeyin zəkatı vardır, bədənlərin də zəkatı oruc tutmaqdır." ("Əl-kafi", 4-cü cild, səh.62, hədis 3; "Təfsiri-nümunə", 1-ci cild, səh.632.)

Rza Şükürlü

# QƏDR GECƏSİ NƏDİR?




İslami hədislərə əsasən belə ehtimal edilir ki, Ramazan ayının 19, 21, 23-cü gecələrindən biri Qədr gecəsidir. Qədr gecəsi Quranın nazil olduğu gecəsidir. Belə ki, Allahu-təala Qurani-Kərimdə buyurur:

**"Həqiqətən, Biz onu (Quranı) Qədr gecəsi nazil etdik!"** (Qədr surəsi, ayə 1)

Beləliklə, bu mətləb ayrı-ayrı surələrdə müxtəlif şəkillərdə açıqlanır. Məsələn, Bəqərə surəsində buyurur: **"(Mübarək) Ramazan ayı elə bir aydır ki, Quran bu ayda nazil edilmişdir"** (Bəqərə surəsi, ayə 185)

Yuxarıda qeyd etdiyimiz ayələrdən belə nəticə alırıq ki, Qədr gecəsi mübarək Ramazan ayının gecələrindən birinə təsadüf edir. Qədr gecəsinin mübarək bir gün olduğu barədə Allahu-təala Duxan surəsində belə buyurur: **"Biz Quranı mübarək bir gecədə (Qədr gecəsində) nazil etdik"** (Duxan surəsi, ayə 3).

Qeyd olunan ayələrdən məlum olur ki, Qədr gecəsi mübarək bir gecədir və Quran bu gecə nazil olmuşdur. Burada belə bir sual ortaya çıxır ki, əgər Quran Qədr gecəsi nazil olmuşsa, bəs Peyğəmbər (s)-in peyğəmbərliyi dövründə o həzrətə nazil olan ayələr hansı ayələrdir?

Cavab olaraq deyə bilərik ki, Qurani-Kərim iki dəfəyə nazil olmuşdur. Birinci dəfə Quran bütövlükdə həzrət Peyğəmbər (s)-in mübarək qəlbinə, ikinci dəfə də isə 23 il ərzində tədricən, ayə-ayə və surə-surə o həzrətə nazil olmuşdur. Bu iki növ nazil olmanı Allahu-təala Qurani-Kərimdə də vurğulamışdır. **"Həqiqətən, Biz Quranı Qədr gecəsi nazil etdik."** ayəsindən və Duxan surəsinin 3-cü ayəsindən ("Biz Quranı mübarək bir gecədə (Qədr gecəsində) nazil etdik") ayəsindən açıq-aydın məlum olur ki, Qurani-Kərim bütövlükdə Qədr gecəsində həzrət Peyğəmbər (s)-in mübarək qəlbinə nazil olmuşdur.

Quranın tədricən, ayə-ayə nazil olması haqda isə Allahu-təala belə buyurur: **"(Ya Peyğəmbər (s)!) İnsanlara aramla (yavaş-yavaş) oxuyasan deyə, Biz Quranı hissələrə ayırıb (ayə-ayə, surə-surə) göndərdik."** (İsra surəsi, ayə 106)

Beləliklə, bu ayədən də məlum olur ki, Quran bir dəfə də tədricən, ayə-ayə, surə-surə nazil olmuşdur.

Burada Quranın həm bütövlükdə, həm də ayə-ayə nazil olması barədə ərəb dilinin qrammatikasına diqqət yetirək. Quranın iki dəfə nazil olması barədə olan ayələrə qrammatik cəhətdən nəzər saldıqda bir daha sübut olur ki, Quran bir dəfə bütövlükdə Peyğəmbər (s)-in qəlbinə, bir dəfə də ayə-ayə, surə-surə 23 il müddətində nazil olmuşdur.

### Quranda Qədr gecəsi

Qədr gecəsi fəzilətli, başqa gecələrdən üstün və böyük əhəmiyyətə malik olan bir gecədir. Allahu-təala bu haqda Qurani-Kərimdə buyurur: **"[Ya Peyğəmbər!] Sən nə bilirsən ki, Qədr gecəsi nədir? Qədr gecəsi min aydan daha xeyirlidir (bərəkətlidir, fəzilətlidir)"** (Qədr surəsi, 2-3-cü ayələr)

Əgər bir şəxs Qədr gecəsi ibadətlə məşğul olarsa, onun bu gecədəki ibadəti 1000 ay (təqribən 84 il) ibadətindən üstün və fəzilətli olar.

### Hədislərdə Qədr gecəsi

İslami rəvayətlərdə Qədr gecəsinin fəziləti haqqında çoxlu hədislər nəql olunmuşdur. Onlardan bir neçəsini oxucuların nəzərinə çatdırmağı faydalı hesab edirik.

Burada qeyd etmək lazımdır ki, islam peyğəmbərindən əvvəlki peyğəmbərlərin dövründə onlar üçün qədr gecəsi təyin olunmamışdır. İslam peyğəmbərinin dövründə Allahu-təala onun ümməti üçün bu mübarək gecəni təyin etdi.

Bir gün həzrət peyğəmbər öz səhabələrinə İsrail tayfasının uzunömürlü olmasından və onların 80 il-

lik və daha artıq ibadətlərindən söhbət açdıqda onlar qibtə edərək dedilər: **"İlahi! Nə olaydı, bizə də uzun ömür əta edəydin və biz də ömrümüzü Sənə ibadət etməyə sərf edəydik."** Belə düşünərək səhabələr Bəni-İsrail tayfasına qibtə edirdilər. Allahu-təala həzrət Peyğəmbər (s)-ə bu ayəni nazil etdi: **"Qədr gecəsi min aydan daha xeyirlidir."** (Qədr surəsi, ayə 3)

Yəni böyük Allahu-təala öz peyğəmbərinə demək istəyir ki, ey Mənim Peyğəmbərim, Mən sənin ümmətinə uzun ömr verməmişəm, lakin əvəzində onlar üçün gecələr arasında bir gecə təyin edirəm və adını Qədr gecəsi qoyuram. Kim o gecəni ibadətlə məşğul olarsa, ona 1000 ayın ibadətinin savabından artıq savab verərəm.

Başqa bir hədisdə nəql olunur ki, islam peyğəmbəri Allahu-təalaya münacat edərkən belə dedi: "İlahi! Sən məndən əvvəlki peyğəmbərlərin ümmətinə uzun ömr vermişdin, onlar da sənə bütün ömrü boyu ibadət edib çoxlu savab qazanıblar. Lakin mənim ümmətimə az ömür vermisən, onlar da Sənə təbii ki, o biri ümmətlərdən az ibadət edib az savab qazanırlar." Beləcə, Peyğəmbər (s) bu kimi ifadələrlə çox münacat etdi. Allahu-təala həzrət Peyğəmbər (s)-ə buyurdu: "Düzdür, sənin ümmətinə az ömür vermişəm, lakin sənə və sənin ümmətinə çox dəyərli bir gecə təyin etmişəm. Bu gecənin ibadəti 1000 ayın ibadətindən daha fəzilətli və daha üstündür".

Beləliklə, Allahu-təala bu ayəni nazil etdi: **"Qədr gecəsi 1000 aydan daha xeyirlidir."** Bu ayənin ardınca Allahu-təala buyurur: **"O gecə (Qədr gecəsi) mələklər və Ruh (Cəbrail) Rəbbinin izni ilə yerə enərlər."** Qədr 4

O gecə mələklər yer üzünə enib Allahu-təalanın bu aləmdə insanlara və cinlərə təyin etdiyi imamı, canişini ziyarət edərlər. Ümumiyyətlə, bunu da qeyd etmək lazımdır ki, hər bir zamanın bir imamı vardır. Allahu-təala hər bir zamanda peyğəmbərlər göndərmişdir. İslam peyğəmbərindən sonra da o həzrətin yolunu davam etdirən imamlar göndərmişdir. İmam Əli (ə), imam Həsən (ə), imam Hüseyn (ə), imam Səccad (ə), imam Baqir (ə), imam Sadiq, imam Museyi-Kazım (ə), imam Rza (ə), imam Muhəmməd Təqi (ə), imam Əliyyən-Nəqi (ə), imam Həsən Əsgəri (ə) bir-birinin ardınca imamlıq edəndən sonra Allahu-təala imam Zamanı (ə.c.) qeyb pərdəsi altında saxladı. Hal-hazırda o həzrət yaşayır, lakin insanların gözündən qeybdədir. Allahu-təala istədiyi zaman o, zühur edəcək. Bu, Allahu-təalanın iradəsidir. Odur ki, hər zaman yer üzündə imam vardır.

Öncə qeyd etdiyimiz kimi, Allahu-təala Qurani-Kərimdə buyurmuşdur: **"O gecə mələklər və Ruh (Cəbrail) Rəbbin izni ilə (həmin gündən gələn ilin**



**Qədr gecəsinədək dünyada baş verəcək) hər bir işi icra etmək üçün (Allahu-təala dərgahından əmrlər alaraq) yerə enərlər."**

Bir nəfər imam Baqir (ə)-dan soruşdu: **"Ey Allahu-təalanın huccəti, Qədr gecəsinin Ramazan ayının hansı gecəsi olduğunu bilirsənmi?"** İmam Baqir (ə) buyurdu: **"Əlbəttə, bilirəm. O gecə bütün mələklər enərək bizi ziyarət edirlər."**

Deməli, məlum olur ki, yer üzü heç vaxt huccətsiz qalmayıb və qiyamət gününə qədər də huccətsiz olmayacaq. Və hər il Qədr gecəsi mələklər yer üzünə enib Allahu-təalanın insanlar üçün təyin etdiyi imamı ziyarət edib salamlayırlar. İslam Peyğəmbərinin dövründə də Qədr gecəsi mələklər yerə enib o həzrəti ziyarət edirdilər. Həzrət Peyğəmbər (s) özü buyurmuşdur: **"Qədr gecəsi mələklər göydən yerə enib məni ziyarət edirlər. Məndən sonra Qədr gecəsi mələklər Əlini (ə) ziyarət edəcəklər. Əlidən sonra isə onun 11 övladını ziyarət edəcəklər."** Bu gecə şübhəsiz ki, mələklər yer üzünün huccəti olan İmam Zamanı (ə.c.) ziyarət edirlər.

Allahu-təala Qurani-Kərimdə buyurur: **"o gecə dan yeri sökülənə kimi salamatlıqdır."** (Qədr surəsi, ayə 5)

Yəni Qədr gecəsi Allahu-təala insanların dualarını qəbul edir və mələklər yerə enib insanları salamlayırlar. Qədr gecəsi gözəl bir gecədir və Allah o gecədə mərhəmət, sağlamlıq və əmin-amanlıq nazil edir. Deməli, qədr gecəsində həm Quran nazil olub, həm də o gecənin ibadəti 1000 ayın ibadətindən üstündür. O, həm bərəkətli bir gecədir, həm Allahu-təalanın mərhəməti olan bir gecədir, həm Allahu-təalanın xeyir-bərəkəti, əmin-amanlığı insanlara nazil olan bir gecədir və həm də o gecə mələklər yerə nazil olaraq yer üzünün imamını ziyarət edirlər.

Hədislərdə nəql olunmuşdur ki, o gecə şeytan möminlərə yaxın düşə bilmir. Şeytan fasiq, azğın, pozğun adamlarla məşğuldur, lakin möminlər o gecəni çətinliklə ibadət edirlər. O gecə mələklər bir-birini salamlayırlar və imamı ziyarət edəndən sonra möminləri də salamlayırlar.

# İnsan ailəsinin ruzisini qazanmaq üçün çalışmalıdır



***Allah-Taala insana bir çox nemət, o cümlədən, fikir, düşüncə, ağıl, bəsirət, elm, qüdrət, güc və gözəl bir bədən vermişdir ki, bu günə qədər hələ də tam olaraq tanınmamış qalır. Bütün bu nemətləri böyük yaradan insana ruzi etmiş və bunun müqabilində insanın öhdəsinə vəzifələr qoymuşdur.***

Allah-Taala insana əmr etmişdir ki, özünün bütün fikir və qüvvəsini yer üzünü şad-xürrəm, abad və gülüstan etməyə yönəltsin. Bununla da özünün, ailəsinin və digərlərinin yaşaması üçün lazım olan ehtiyaclarını (yemək-içmək, məskən, geyim və s...) əldə etsin. Özü əkdiyi ağacın kölgəsində oturub zəhmətini çəkdiyi məhsulun meyvəsindən faydalansın.

Allah-Taala təbiəti insan üçün ram və tabe etmişdir. Buna görə də insan təbiətdəki hər bir şeydən özünün mənəvi və maddi ehtiyaclarını ödəmək üçün istifadə edə bilir. İnsanın sahib olduğu bütün bu imkanlar, Allah-Taala tərəfindən ona verilən ruzidir. [1] Buna görə də insan yer üzünün gülüstana dönməsi üçün çalışmalı və ruzisini öz əməyi ilə qazanmalıdır. İmam Əli (ə) buyurur: “Allah-Taala, (halal) ruzi üçün çalışan insanların ruzisinə zamindir”. [2]

İmam Əli (ə) ailəsinin ruzisini qazanmaq üçün özü şəxsən işləyir və bunu başqalarının öhdəsinə qoymurdu. O, özü əlinə bel götürüb yeri şumlayır, su arxı çəkir, əkin sahəsini və xurma ağaclarını suvarır və öz halal zəhmətiylə ailəsini dolandıraraq başqalarına da kömək edirdi. Rəvayətlərdə vardır ki, O, öz əlinin zəhməti ilə yüzlərlə qul alıb azad etmişdir. [3]

Heç vaxt faydalı iş görməyi eyib bilib, utanmayın. Öz yükünüzü başqalarının çiyninə qoymayın. Öz ailəsinin ruzisini qazanmaq üçün çalışan, zəhmət çəkən və halal ruzi dalınca gedən  şəxs, Allah-Taala yolunda döyüş meydanında kafirlərlə üzbəüz cihad edən şəxs kimidir. [4]

İndi ki, bildiniz tənbəllik və süstlük pis xasiyyətdir, onda həm özünüzü, həm də başqalarını halal ruzi qazanmaq üçün iş və əməyin zəhmətlərinə qatlaşmağa dəvət edin.

Kişi həm ev işlərində bacardığı qədər ailəsinə kömək etməli, həm də çöl işlərində ciddi çalışmalı, ailəsinin xərclərini ödəməli və tənbəllik etməməlidir. Həmçinin, qazandığı ruzini ailəsi üçün qənaətlə xərcləməklə yanaşı, onları sıxıntı və çətinliyə salmamalıdır. Əgər ailəsinin ehtiyaclarını ödədikdən sonra artıq bir şey qalarsa, başqalarına da kömək etməlidir.

Müqəddəs İslam dininə əsasən, kişi ailəsinin yaşayışı üçün lazım olan bütün xərcləri təmin etməlidir və bu barədə yalnız o, məsuliyyət daşıyır. Buna görə də ailə və uşaqlarının normal yaşayışını təmin etmək üçün işləməlidir.

İmam Sadiq (ə) buyurur: “Kişi ailəsinin nəciblik və izzətini qorumaq üçün üç şeyə möhtacdır: Yaxşı əxlaq və gözəl ünsiyyətə; Onların ruzisini çoxaltmağa (müəyyən olunmuş həddə riayət etməklə); Onları qorumaqda qeyrətli olmağa. Əgər bunlar kişinin təbiətində olmazsa, gərək özünü oda-alova vurub, zəhmətlərə qatlaşıb bu üç şeyi təmin etsin”.[5]

Allahın Rəsulu, əzəmətli Peyğəmbərimiz, həzrət Məhəmməd Mustəfa (s) buyurur: “Halal ruzi üçün çalışmaq hər bir müsəlman kişi və qadına vacibdir”.[6]

İmam Sadiqin (ə) səhabələrindən olan Fəzl bin Əbi Ğurrə adlı bir şəxs deyir: “İmam Sadiqi (ə) əkin sahəsində işləyib tər tökdüyü halda gördük. Yaxınlaşıb salam verdik və istədik ki, beli əlindən alıb kömək edək. O Həzrətə (ə) dedik: “Sizə fəda olaq, icazə verin biz işləyək, siz istirahət edin. İcazə verin bu fəhlələr işlərinizi görsünlər”.

İmam Sadiq (ə) buyurdu: “Yox!... İcazə verin özüm işləyim. Çünki mən çox istəyirəm, Allah-Taala məni öz iki əlimlə işlədiyim halda görsün və şahid olsun ki, mən ruzimi halallıq, əziyyət, çətinlik və zəhmətlə qazanıram.

Hər kəs dünya ruzisini qazanmaq üçün bu niyyətlə çalışsa ki, başqalarına möhtac olmasın, öz ailəsinə ruzi gətirsin və başqalarına da kömək etsin, Qiyamət günü Allah-Taalanın hüzuruna üzü on dörd gecəlik ay kimi işıq saçan halda gələcəkdir".[7]

**Ustad Seyid Əliəkbər Hüseyninin "İslamda ailə əxlaqı" kitabından çıxarış.**

---

[1] . "Nəhl", 53: "Sizə gələn hər bir ne'mət Allahdandır. Sonra sizə bir müsibət üz verdikdə Ona yalvarıb-yaxarırsınız!"

"Zariyat", 58: "Şübhəsiz ki, ruzi verən də, qüvvət sahibi də, yenilməz olan da Allahdır!"

[2] . "Biharul-ənvar", 77/241.

[3] . "Yenə orada", 41/27.

[4] . "Yenə orada", 103/13.

[5] . yenə orada 78/236;

[6] . yenə orada 103/9;

[7] . "Vəsailuş-şiə", Hürr Amuli, 12/24

Mirməhəmməd Bəşir

---




# *GÖZƏL ƏXLAQ kamil orucun şərti*

**Mötəbər hədis və rəvayətlərdən məlum olur ki, Allahın ayı olan Ramazanın əzəmət və böyüklüyü insan ağlının bunu dəyərləndirmək bacarığından qat-qat ucadır.**

İnsan təsəvvürü bu ayın ucalığını və bu ayın qaydalarına əməl edən şəxsin qazanacağı savabın miqdarını anlamağa qadir deyil. Elə buna görə Allahın Rəsulu (s) buyurmuşdur: "Əgər bəndə Ramazanda nə qədər dəyər olduğunu bilsə, hər ilin Ramazan olmasını istəyər" (Biharül-ənvar, 93-cü cild, səh. 346). Və elə buna görə cənnətin səkkiz qapısından birinin "rəyyan" adlandığı, bu qapıdan yalnız orucunu kamil şəkildə tutanların daxil ola biləcəyi söylənilir. "Oruc mənə görə tutulur və onun əvəzini mən verəcəyəm" hədisi-qüdsisi də kamil orucun təsəvvürəgəlməz savabı haqqında düşünməyə əsas verir. Bütün xeyir işlərin savabını əlbəttə ki, Allah-təala verir. Amma orucun savabının xüsusi qabardılması bu savabın ya kəmiyyət, ya da keyfiyyət baxımından tam fərqli olacağına işarədir.

Öz-özlüyündə aydındır ki, Ramazan ayı bu ayda Qurani-kərimin nazil olması səbəbindən Allah yanında uca məqama malikdir. Elə buna görə Ramazan ayının gündəlik duasında da Allahın başqa aylar içində bu aya daha çox əzəmət, kəramət, şərafət və fəzilət verdiyi qeyd olunur. Məşhur şəbaniyyə xütbəsində Peyğəmbərimiz günlərin ən yaxşısının, gecələrin ən üstününün məhz bu ayda olduğunu vurğulamışdı.

Lakin bununla yanaşı, hər kəs üçün Ramazanın böyüklüyü bu ayı necə yaşamasından asılı olaraq fərqlidir. Başqa sözlə desək, hər kəsin Ramazanı fərdidir, bənzərsizdir. Ramazanı insan üçün dəyərli edən, onu on bir ayın sultanına çevirən həmin insanın bu aydakı mənəvi-ruhani vəziyyəti, əxlaqı, əməlləridir. Orucluğun yalnız zahiri deyil, həm də batini qaydalarına riayət edən şəxs onun əsil ləzzətini duyar və duyduqca ucalar.

Orucluğa mənəvi rəng qatan dəyərlərdən ən mühümü "hüsni-xülq" adlandırılan dəyərdir. Dilimizə "gözəl əxlaq" kimi tərcümə olunsa da, hüsni-xülq daha çox həlimlik, insanlarla mehribanlıq, səmimiyyət, ətrafdakıları incitməmək mənalarına uyğundur.

Doğrudur, gərginliklərlə, streslərlə dolu həyatda aramlıq tapmaq və səbirli davranmaq çox çətindir. Həm maddi, həm də mənəvi problemlər insanı öz məngənəsində sıxır. Lakin insan bu çətinliklərə sinə gərməyi bacarmalı, batini tarazlığı əldən verməməli, davranışlarında gözəl əxlaq sərgiləməlidir.

Gözəl əxlaq orucla birbaşa bağlı olan bir dəyərdir. Allahın Rəsulu Ramazan ayının gəlişi ərəfəsində söylədiyi məşhur şəbaniyyə xütbəsində bu bağlılığı belə ifadə edirdi: "Ey insanlar! Sizdən hər kim bu ayda öz əxlaqını gözəlləşdirsə, hər kəsin ayağının əsdiyi sırat körpüsündən o, rahat keçər" (Üyunü əxbarir-Riza, 1-ci cild, səh. 296).

İmam Mühəmməd Baqir (ə) buyurmuşdur: "İman baxımından möminlərin ən kamili ən gözəl əxlaq sahibi olandır" (Əl-Kafi, 3-cü cild, səh. 256). Peyğəmbərimiz isə "mənim yanımda ən sevimli və qiyamətdə mənə ən yaxın olanınız ən gözəl əxlaq və təvazö sahibi olanınızdır. Məndən ən uzaqda olanlar isə təkəbbür sahibləridir" buyurmaqla, gözəl əxlaqın dünya və axirət həyatında nə qədər böyük əhəmiyyət daşıdığını diqqətə çatdırmışdır (Biharül-ənvar, 68-ci cild, səh. 385).

# UŞAQLAR ÜÇÜN
# İLKİN VƏ DAVAMLI TƏRBİYƏ İNSTİTUTU

**Son illərin bizə gətirdiyi çox çirkinliyi görmüşük... Düzdür, özü imperiya idi, amma buna baxmayaraq, Sovetin dövründə indiki kimi açıq-aşkaranə çirkinlik, əxlaqsızlıq yox idi. Bəlkə də arxada, gizlində var idi. Amma üzdə bu cür qeyri-əxlaqi, insan yaradılışına zidd görünüşlərin, həyat tərzlərinin izi-tozu da yox idi. Necə deyərlər, kişi kişi kimi idi, qadın da qadın kimi!**



Müstəqillik qazanandan sonra elə təzəcə sevinirdik ki, evlərimizə Brazilya, Argentina, Meksika serialları daxil oldu. Və hər serialda da əxlaqsız kişilər və qadınlar bir yana, mütləq ən azı bir nəfər qəribə bir obraz olurdu və həmin obraz məxsus olduğu kişi cinsinə deyil, qadına xas olan hərəkət və davranışları olurdu. Azərbaycan tamaşaçısı üçün olduqca maraqlı, əvvəllər görmədiyi bu personaj, təqribi bütün seriallarda çox rəhimli, qəlbi təmiz, heç kimə pislik etməyən bir tərzdə olurdu. Yəni məhz bu cür ssenari bizə təqdim olunurdu... Və həmin "qəribə" insanlar birmənalı olaraq həmişə müsbət qəhrəman kimi bizə təqdim olunurdu...

Sonra türk serialları başladı. Türk televiziyaları da bu cür, özünü məxsus olduğu cinsin ziddinə aparan insanlar ilə dolub-daşırdı. Və bir az əvvəl, Brazilya, Argentina seriallarında bizə təqdim olunan, lakin bizim yad, başqa, bizdən olmayan, bizə məxsus olmayan həmin insanlar, bu dəfə qanı bir, canı bir, dini bir, dili bir olan qardaşlarımız tərəfindən təqdim olunanda, sanki, camaatımız tərəfindən bir az daha rahat qəbul edildi...

Sonra bu cür insanlar yavaş-yavaş öz içərimizdə peyda olunmağa başladılar. Yenə əvvəl-əvvəl bir ürf olaraq qəbul etmədik. Amma illər keçdikcə, nə isə baş verdi və həmin o dünən bu cür qeyri-normal həyat tərzi keçirən insana ikrahla baxan cəmiyyət, bu gün həmin o qadın geyimi geyən "kişilər" ilə şəkil çəkdirmək növbəsinə düzülür...

Nə baş verir? Səhnəmizdə, televiziyamızda, bu cür qadına çevrilən kişilər hər gün bizə təqdim edilir. Sosial şəbəkələrdə məhz bu cür insanların izləyicilərinin sayı normal insanlardan ağla gəlməyəcək dərəcədə çoxdur! Onlarla heç olmasa bir dəfə şəkil çəkdirmək istəyən kişilər, çoxu yəqin ki, "namus-qeyrət deyən" kişilərdir. Onları öz açılışlarına, tədbirlərinə dəvət edən qadınların çoxu anadır, çoxunun da oğlu var. Nə təqdim edir o, öz oğul balasına? Bunu necə izah edir?! Və gələcəkdə hansı normal həyatı gözləyir öz balasından?

Bu cür "ləçəkli kişilərin" müdafiəçilərinin çox vaxt bir səbəbləri olur və bu səbəbi əllərində az qala bayrağa çevirirlər ki, "nə istəyirsiniz, yazıq xəstədir, Allah onu belə yaradıb, kimə nə edir ki?". Birincisi, bəli, həqiqətən də bu cür xəstə insanlar olur – yaradılışında anormallıq olan digər fiziki qüsurlu insanlar kimi. Amma onların dünyaya gəlişi çox az olur, tək-tük olur. Bu qədər geniş yayılmış bir xəstəlik deyil.

Qısası, bizə təqdim olunan insanların əksəriyyəti xəstə insanlar deyil. Çoxu bu cür yaşamağı özünə bir peşə seçmiş insanlardır...

İkincisi də, necə yəni kimə nə pislik edir? Oğlan uşaqlarına "Kişi necə olmalıdır"-ı əyani şəkildə başa salır. Və mənfi cəhətlərdən biri odur ki, əvvəllər məktəblərdə kişi müəllimlər olurdu, həmin kişi müəllimlər, heç olmasa oğlan uşaqlarının tərbiyəsində az-çox rol oynaya bilirdilər. İndi daha çox qadın müəllimlərindən ibarət olan bir məktəb, daha çox ananın rol aldığı bir ailə, atanı gecədən-gecəyə görən oğlan uşağının tərbiyəsi çox çətin məsələyə çevrilib. Bir tərəfdən də bu cür insanlar...

Yeni dövrün özü ilə gətirdiyi hədsiz çirkinlik və aşkaranə olan eybəcərlik, iyrənciliklərdən biri də budur ki, bir insana baxırsan-baxırsan, amma onun qadın, ya kişi olduğunu heç cür anlaya bilmirsən...

Yazını bu cür besimist, minor notlarla başa vurmaq istəmirəm. Şükür ki, Aləmin Yaradıcısı var. Və bəndələrinə mehriban bir Rəbbimiz var. Gözəllikləri təlqin edən, insanı həqiqi gözəl olmağa dəvət edən dinimiz var. İdeal ailə modelini ortaya qoyan mübarək təlimimiz var.

Hər bir ailə çalışmalıdır ki, övladına həqiqi dəyərləri təlim və təlqin etsin. Övladları üçün əsil tərbiyəçi olsun. Çalışsın ki, övladı kənar təsirlərdən maksimum qorunsun.

Ailə, uşaqlar üçün ilkin və davamlı tərbiyə institutu olmalıdır.

İnşəallah ki, hər bir çirkinlik, pislik bir gün ortadan qalxacaq. Bu dünyanın təmiz və pak günləri hələ qabaqdadır.

İnşəallah ki, bizlərə də o günləri görmək nəsib olar. Allah hər bir bəndəsinə həqiqi hidayət nəsib eləsin. Hər bir bəndəsinə...

Xəyalə Quliyeva

# HƏZRƏT MEHDİNİN (Ə.F) ZÜHURU BƏŞƏRİYYƏTİN DÜŞÜNCƏ VƏ MƏNƏVİ İNKİŞAFINA BAĞLIDIR



Mütəvatir (mötəbər) hədislərdə deyilir:"Yer üzünü zülm-sitəm bürüdüyü vaxt Allahın son höccəti həzrət Mehdi (ə) qeyb pərdəsindən çıxıb, dünyada ədaləti bərqərar edəcəkdir."

Deməк, həzrət o zaman zühur edəcək ki, yer üzünü fəsad bürüsün. Bir halda ki, hər bir müsəlman son imamın zühuru intizarında olmalıdır, onda biz fəsadla mübarizə aparmalı yox, onun daha da yayılması üçün çalışmalıyıq. Yer üzündə fəsad nə qədər çox yayılarsa, zühur üçün şərait də tez yaranar. Məgər biz fəsadla mübarizə aparmaqla imamın zühurunu təxirə salmırıqmı?

Lakin bilməliyik ki, imamın zühur şərti yalnız ictimai fəsadların artması deyil. Əgər bəşəriyyət düşüncə və mənəviyyat baxımından inkişaf edib, imamın dəyərini anlayacaq bir həddə çatarsa, həmin vaxt imam qeyd-şərtsiz zühur edər. İmamın zühuru üçün əsas şərtlərdən biri bəşəriyyətin belə bir rəhbərə layiq olmasıdır.

Əqidə və din kitablarında geniş şəkildə araşdırılmışdır ki, imamın qeybdə qalmasının əsas səbəbi bəşəriyyətin iman, əxlaq və əməl baxımından bu zühura hazır olmamasıdır. Əgər bu maneə aradan qaldırılsa, qeybət dövrü başa çatar.

Böyük filosof mərhum Xacə Nəsrəddin Tusi "Təcridul-əqaid" kitabında bu barədə üç qısa və dəyərli cümlə buyurmuşdur. Bu cümlələri qısa izahla təqdim edirik:

a) "Vucuduhu lutfun": İmamın istər aşkar, istərsə də gizli varlığı bəşəriyyət üçün böyük mənəvi nemət və Allaha yaxınlaşma vasitəsidir. Çünki Allahla xalq arasındakı əlaqə imam vasitəsi ilə bərqərar olur. Bir çox mənəvi və maddi nemətlər imama xatir insanlara əta olunur. Hətta imamı görməyib-tanımayan layiqli insanlar imam vasitəsi ilə mənəvi hidayət edilir.

b) "Və təsərrufihi lutfun axər": Əgər imam qeyb pərdəsi arxasından çıxıb, aşkar yol göstərərək, hakimiyyəti ələ alsa, bu da növbəti bir nemət olacaq. Bu halda nəinki kiçik bir qrup, bütün bəşəriyyət imamın vücudundan bəhrələnəcək. Çünki imamın vücudu ədalət və ilahi göstərişlər məzhəridir.

v) "Və ədəmihi minna": Əgər imam qeyb pərdəsi arxasında qalıb, xalqın işlərinə müdaxilə etməsə, bəşəriyyət üçün çox faydalı bir iş həyata keçməmiş qalacaq. Amma bu maneəni yalnız və yalnız xalq özü yarada bilir. Bu nemətin əta edilməməsinin səbəbkarı xalq özüdür. Əgər xalq fəzilət, əxlaq, ədalət üzərində qurulmuş dünyəvi bir hakimiyyət istəyirsə və buna hazır olarsa, sözsüz ki, bu iş baş tutacaq. Bu iş, heç şübhəsiz, Allah tərəfindən yubadılmır və zühura maneçilik törədən xalq özüdür.("Kəşful-Murad", s.226.) Bəli, yer üzündə fəsadın yayılması imamın zühuruna xas şərt deyil. Zühur üçün ən yaxın yol xalqın ləyaqətli olmasıdır.

**Başqa sözlə imamın rəhbərliyinin iki şərti var:**

**1. Məsum İmamın varlığı**

**2.İmamın(ə.f) qəbulu üçün xalqın hazırlığı.**

Əgər xalqdan asılı olan ikinci şərt ödənərsə, birinci şərti Allah-təala dərhal ödəyəsidir.

Əsl məqsəd fəsadın yayılması, cəmiyyətin pozulması deyil. Belə bir təzahür imamın zühuru üçün yalnız şərait yaradır. Çünki yer üzünü zülm-sitəm bürüdükdə, üzücü problemlər insanı hədələdikdə, insan bu vəziyyətdən təkbaşına çıxa bilmir. Belə bir məqamda o ilahi rəhbərin zəruriliyi haqqında düşünür və buna hazırlaşır. İnsan anlayır ki, onun xəstəliyinin yeganə dərmanı ilahi dərgahdadır və cəmiyyəti bürümüş azğınlıqlara yalnız ilahi dirçəliş son qoya bilər.

Heç bir islahedici dirçəliş düşüncə hazırlığı olmadan gerçəkləşmir. "Tələbat və təminat" iqtisadiyyatın əsas məsələsi olduğu kimi ictimai dirçəlişin də əsasını təşkil edir. Xalqın tələbatı olmadığı şəraitdə istənilən bir maddi və mənəvi təminat səmərəsizdir.

Dünyanı bürüyəcək ədalət üçün elə insanlar hazırlan-



malıdır ki, həzrətin ümumbəşəri məramları bütün yer üzündə gerçəkləşə bilsin. Belə bir müqəddəs hədəf o zaman həqiqətə çevrilir ki, ədalətsevər insanlar əlini əlinin üstünə qoyub oturmasın və imanlı insanlar tərbiyə etmək üçün zəhmət çəksin.

Bütün bunlardan əlavə, biz həzrət Mehdiyə (ə) münasibətdə öz mövqeyimizi müəyyənləşdirməliyik. Əgər biz yer üzündə fəsadın yayılmasına kömək etsək, şübhəsiz ki, həzrət Mehdinin(ə) hədəfinə çevrilərik. Yox əgər cəmiyyətin islahına çalışsaq, O həzrətə yardım edənlərdən olarıq. Deməli, yer üzündə fəsadın artmasına kömək etməklə həzrət Mehdinin (ə) zühurunu tezləşdirmiş olsaq belə, özümüzü təhlükəyə atmış oluruq. Məgər həzrət Mehdi (ə) fəsada rəvac verənlərin əllərini kəsmək üçün zühur etməyəcəkmi? Yer üzündə fəsadın yayılmasına kömək etdiyimiz halda Mehdinin (ə) zühurundan necə faydalana bilərik?

Belə ki, zühurun tezləşməsi üçün fəsad qarşısında sakit dayanmaq və ya fəsadın yayılmasına kömək etmək düzgün deyil. Çox güman ki, belə bir yanlış münasibətin müəllifi məsuliyyətdən boyun qaçırmaq istəyənlər və ya fəsada aludə olanlardır.

***Ayətullah Məkarim Şirazi;***
***Ayətullah Cəfər Sübhani***

# SUİ-ZƏNN və BƏDBİNLİYİN SƏBƏBLƏRİ



Psixoloji baxımından sui-zənn, bədbinlik və bədgümanlıq bəzən yüngül, bəzən də sərtləşərək ruhi-psixoloji xəstəlik kimi özünü büruzə verir. Hər iki halın müxtəlif səbəbləri ola bilər. Məsələn:

1. Bəzən bədbinlik ədavət, kin-küdurət, paxıllıq və qisas hissindən qaynaqlanır. İnsan qarşı tərəfdən zor gücü və yaxud dili ilə qisas ala bilmədiyindən, düşüncələrində fitnələrə əl ataraq pis fikirlərə düşür, onu daim mühakimə və məzəmmət edərək nəfsinə təsəlli verir. Yəni xarici aləmdə nail ola bilmədiyini təsəvvür və fikirlərində tapır və beləcə, öz əməlindən saxta ləzzət, rahatlıq alır. Bu isə bir növ "təxəyyülə uyma və sığınma", "həqiqətdən ruhi sapınma" adlanır və müasir psixologiyanı da maraqlandıran məsələlərdən biridir. Bir sıra izahlarda deyilir ki, istəklərinə xarici aləmdə nail ola bilməyən insanlar özlərinə qapılaraq daxildə hiss etdiyi boşluğu xam xəyallar və əbəs düşüncələrlə doldurmağa çalışırlar. Bəzən onları yuxuda, bəzən də öz təxəyyül və poetik hisslərində axtarırlar. Adətən, böyük şair adını qazananlar şairlik istedadından əlavə, həyatda itkilər, narahatlıqlar, ağrı-acılar, uğursuz eşq və məhəbbətlərlə də üzləşirlər. Onlar məşuq itkisini təxəyyülündə, poetik duyğularında, ədəbi incəliklərində arayıb-axtardığından təxəyyül qüvvələri, poetik hissləri hədsiz artır. Necə deyərlər, lirik şeirlər daha gözəl, daha cəlbedici olur. Bir sözlə, "təxəyyülə uyma" insanda bir çox psixoloji hadisələri, o cümlədən, bədbinlik və bədgümanlıq kimi hissləri cücərdə bilir.

2. Nikbinlik insanın saflığından qaynaqlandığı kimi, bədbinlik və bədgümanlıq da mənəvi çirkinlik və aludəlikdən baş qaldırır. Yəni "müqayisə" zamanı insan başqalarını ya yaxşı, ya da pis görür. Bu xislət özünü savadsız və ya nadan təbəqə arasında daha artıq büruzə verir.

3. Bəzən insan vicdan məhkəməsində bədbinliyə düçar olur, günahlarına şərik axtarmağa çalışaraq başqalarına qarşı pis fikirlərə düşür, öz çirkin əməllərini yozaraq onları adiləşdirib, demək istəyir ki, belə işlərə əl atan təkcə o deyil.

4. Bəzən də bədbinlik təkəbbür və xudbinlikdən baş qaldırır. Məsələn, özlərini başqalarından üstün bilənləri çox vaxt başqalarının nöqsanları maraqlandırır, cürbəcür ehtimallarla onların dəyərini endirir, özlərini isə yüksəldirlər.

5. Bəzən isə ata-ana və ya müəllimin təlqinləri bədbinliyin amillərindən birinə çevrilir.

6. Pis adamlarla yoldaşlıq da onun səbəblərindəndir. Bəzən insanın münasibətlərində meyar oturub-durduğu, yoldaşlıq etdiyi adamlar olur. Hətta onun bir kənd, şəhər, ölkə, yaxud millət barəsində təfəkkür tərzi yoldaşlıq əlaqələri ilə bilavasitə bağlı olur. Yoldaşları pis olanlar, təbiidir ki, hamıya qarşı bədbin olurlar. Bu məsələ hədislərdə belə açıqlanır:

مُجالَسَةُ الْاَشْرارِ تورِثُ سُوءَ الظَّنِّ بِالْاَخْيارِ

"Pis adamlarla oturub-durmaq yaxşı insanlara qarşı bədbinlik gətirir." ("Biharul-ənvar", 74-cü cild, səh.197, hədis: 31.)

7. Bəzən də bədbinlik səbəbsiz olmur. Yəni bir zaman və ya mühitə hakim olan fitnə-fəsaddan yaranan "Oxşar hadisələrin yayılması və çoxluğu eyni faktorun reallığına əsas verir!" – fikri insanda bədbinliyə səbəb olur. ("Əxlaq sayəsində sağlam həyat", Ayətullah Məkarim Şirazi, səh. 93-95.)

Rza Şükürlü

# ESXATOLOJİ DÜŞÜNCƏNİN ZƏRURƏTİ

## *Məad haqqında düşünməyin nə zərurəti var?*

**İnsan varlıq aləmindəki mövcudatdan biri kimi daim hərəkətdə, axtarışdadır və məqsədə doğru irəliləyişdədir. Çünki hər bir işdə bir "üçün" var. Nə üçün təhsil alırsan? Savadlı, bacarıqlı olmaq üçün. Nə üçün işləyirsən? Qazanc əldə etmək, yaşamaq üçün. Nə üçün pul qazanırsan? Qidalanmaq üçün. Beləcə hər "niyə"nin qarşısında bir "üçün" var.**



Bu "üçün"lər insanın işinə məna verir. Əgər gördüyü işin "niyə"sinin qarşısında "üçün"ü olmasa, o iş mənasız, əbəs və bihudədir. Böyük filosoflar sübuta yetirmişlər ki, insan əsla heç bir məqsədi, qərəzi olmayan iş görə bilməz. Lakin "əbəs"lər nisbidir. Misal üçün, bu və ya digər xəyali idrakdan, şövqdən doğan iş həmin idrak və şövqə uyğun olaraq əbəs deyil. Amma rasional məqsəd baxımından nəzərə alsaq, onu əbəs adlandıra bilərik.

Bir tərəfdən insan fitri olaraq kamillik axtarışındadır. Yəni, öz varlığını daha da genişlətmək istəyir. Biliyinin, qüdrətinin, iradəsinin və həyatının qeyri-məhdud, mütləq olmasını istəyir. O, mütləq kamillik sorağındadır. Belə ki, əgər dünyanın mütləq gücü olsa belə, bütün kainat ixtiyarında olsa belə, ona başqa bir dünya da var deyildikdə, fitri olaraq, o dünyanı da ixtiyarına almağa meyl göstərəcək. Yaxud, məsələn, nə qədər savadlı olsa da başqa bilik sahələrinin də mövcudluğundan xəbərdar olsa, fitri olaraq o bilikləri də oyrənməyə can atacaq. Əslində insan kamilliyin heç bir səviyyəsi ilə qane olmur. Nəyi olsa, ondan daha çoxunu istəyir və bu, aydın və şübhəsiz məsələdir.

Əgər bəşər həyatının bütün dönəmlərinə diqqət yetirsək, tarixi vərəqləsək, bu kamillik axtarışının, kamillik tələbinin, kamilliksevərliyin və mütləq kamilliyə eşqin şahidi olacağıq. Dünyada çox az dinə rast gəlmək olar ki, bu haqda danışmasın. Doğrudur, kamilliyin müəyyənləşdirilməsi, ona çatmağın yolları haqqında fikir ayrılıqları böyükdür. Lakin buna baxmayaraq, hamı bir prinsipdə yekdildir ki, insan fitri olaraq kamillik sorağındadır. Bəşər həyatı qədər keçmişi olan bu iki prinsipə, yəni "insanın daimi hərəkət və dəyişkənliyi" və onun "fitri kamillik axtarışı" prinsiplərinə nəzər salsaq, esxatoloji düşüncənin, son qayə haqqında təfəkkürün insanın ən qədim və əsas fikri məşğuliyyəti olduğunu etiraf edəcəyik. Bu, həmişə belə olmuş, bundan sonra da belə olacaqdır.

Ola bilərmi ki, insan bu iki məsələnin təsiri altında özünə gəlsin və aqibət haqqında düşünməsin? Demək olarmı ki, bu və ya digər insan, həyatı boyu heç zaman öz məqsədi, hədəfi haqqında düşünməmiş və ya düşünməyəcəkdir? Onun məqsəd və ya məqsədlərə – hətta son qayə olmasalar belə – çatmaq naminə atdığı addımları, səyləri göstərən gündəlik həyatına nəzər saldıqda onun aqibət haqqında düşündüyünü görürük.

Hansı insanı tapmaq olar ki, gündəlik, illik fəaliyyətində, ömrü boyunca məqsədsiz, qayəsiz yaşasın?

Hətta xoşagəlməz, yanlış və ağlasığmaz işlər görən insan belə gördüyü işlərə haqq qazandırır, öz məqsədlərini sübut etməyə çalışır. Varlıq aləminin hərəkəti və kamillik axtarışı qarşısında hiss etdiyi məsuliyyət insanı sonunu düşünməyə, aqibəti nəzərə almağa vadar edir. Bu özü insanın digər varlıqlara nisbətdə böyük fəxri, onun ən şərafətli varlıq olmasının göstəricisidir.

### Məad haqqında düşünməyin hansı faydaları var?

Məad haqqında düşünməyin çoxlu sayda faydaları vardır ki, onları saymaq və geniş izah etmək bu yazıya sığmaz. Buna görə də yalnız bəzi faydalarını diqqətinizə çatdıraq:

**1. Tədbirlilik (uzaqgörənlik);**

Öz aqibətini, sonunu düşünən şəxs daim ehtiyatı əldən verməməyə çalışır ki, ziyana düşməsin, zərər görməsin. İşin sonu haqqındakı bu düşüncə və fikri təlaş insanı işi hərtərəfli ölçüb-biçməyə, daha çox düşünməyə vadar edir. Belə ki, diqqət və ehtiyat təbii olaraq ona şirin qələbə yaşadır. Necə ki, İmam Əlidən (ə) nəql olunan bir hədisdə oxuyuruq: " Qələbə uzaqgörənlikdədir. Uzaqgörənlik fikri işə salmaqladır. Fikir isə sir və gizli şeyləri qorumaqladır" ("Nəhcül-bəlağə", qısa kəlamlar, 48).

**2. Elmi və əməli səy;**

İnsan, varlıq aləminə yeni və ciddi baxışla təbiət, özümüz, Allah, insan və təbiət münasibətləri haqqında düşünür. Başqa sözlə, sonunu düşünmək insanı özü haqqında, Allah haqqında və dünya haqqında məlumatlı olmağa sövq edir. Özünü tanıyarkən insanın həqiqət axtarışı dərdi canlanır. Həzrət Əli (ə) bu haqda (ə) buyurur:

"Allah, haradan gəldiyi, harada olduğu və haraya gedəcəyini bilən şəxsə rəhmət etsin" (Molla Sədra, "Əsfari-ərbəə", c. 8, səh. 355).

**3. Ciddi-cəhd.**

İnsan öz aqibəti haqqında düşündükdə, onu tədbiri, uzaqgörənliyi və özünü tanıması ilə birgələşdirdikdə təbii olaraq, son qayəni tanımaq istiqamətinə yönlənir.

Məqsədi tanımaq, fəaliyyətlərə istiqamət verməkdə, işləri seçməkdə başlıca rol oynayır. "Dünya həzzi"ndən başqa bir məqsəd və "maddi həyat"dan başqa bir kamillik tanımayan şəxs öz davranışını elə tənzimləyir ki, yalnız maddi ehtiyacları və bu dünyalıq istəkləri təmin olunsun.

Lakin öz son məqsədini bu maddi dünyanın fövqündə görən şəxs, labüd həyat proqramını da son və o dünyalıq məqsədinə daha çox nail olmaq üzərində qurur. Həzrət Əli (ə) buyurur: "Görən (dünyanın qalmaq yeri olmadığını bildiyindən) ondan (axirət səfəri üçün) azuqə toplayar (təqva və pəhrizkarlığı seçər), kor isə (dünyanı əbədi məkan təsəvvür etdiyinə görə) onun üçün azuqə yığar (var-dövlət toplamaq üçün Allahın və Peyğəmbərin göstərişlərinə göz yumar)" ("Nəhcül-bəlağə", xütbə: 133).

Tərcümə edən: Maqsud Sayıl

# PAKİSTANIN MƏNƏVİ QURUCUSU

# ƏLLAMƏ MƏHƏMMƏD İQBAL



***XX əsr islam aləminin ən görkəmli şəxsiyyətlərindən biri olan Əllamə Məhəmməd İqbal Pakistan İslam Respublikasının mənəvi qurucusudur. O, xalqın bağrından qopan filosof, alim və siyasi xadim kimi, onun hiss və həyəcanlarını tərənnüm edən şair kimi geniş şöhrət qazanmışdır. Bədii əsərlərini üç dildə - urdu, fars və pəncab dillərində qələmə almış, ingilis dilində isə əsasən elmi və siyasi məqalələr yazmışdır.***

Əllamə Məhəmməd İqbal 9 noyabr 1877-ci ildə Pəncab vilayətinin Siyalqut şəhərində Şeyx Nur Məhəmməd adlı mömin dərzinin ailəsində dünyaya gəlmişdir. Ulu babaları XVII əsrdə islam dinini qəbul etmiş brəhmən nəslindəndir. İlk təhsilini Siyalqut mədrəsəsində alaraq Qurani-Kərimi, ərəb-fars dillərini öyrənmişdir. 1892-ci ildə qucaratlı həkimin qızı Kərimə-Bibi ilə ailə qurmuşdur. Bu izdivacdan onun Cavad İqbal, Aftab İqbal və Mirac Bəyim adlı üç övladı olmuşdur.

Məhəmməd İqbal 1895-99-cu illərdə Lahordakı dövlət kollecində oxumuş, burada ərəb və ingilis ədəbiyyatına və fəlsəfəyə dərindən vaqif olmuşdur. Kolleci qızıl medalla başa vuran İqbal magistr dərəcəsi almış, bir müddət Şərq dilləri fakültəsində dərs demişdir. Daha sonra müəllimi məşhur şərqşünas Tomas V. Arnoldun tövsiyəsi ilə dünyagörüşünü artırmaq üçün Avropaya getmişdir.

1905-07-ci illərdə İngiltərədə Kembric universitetinin fəlsəfə və iqtisad fakültəsində oxuyan İqbal hüquqşünas diplomu almış, eyni zamanda universitetdə ərəb dili və ədəbiyyatı müəllimi kimi çalışmışdır.

İqbal daha sonra Almaniyada Lüdviq Maksimilian universitetində (Münxen) oxumuşdur. Burada "İranda metafizikanın (təsəvvüfün) inkişafı" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş (1908) və professor elmi dərəcəsinə layiq görülmüşdür. Gənc filosof bu əsərində Şərq fəlsəfəsini və dini təlimləri təhlil etmiş, ibn Sina, ibn Ərəbi kimi filosofların dünyagörüşünü yüksək qiymətləndirmişdir. O, mənəvi məsələlərin həllində islam təliminə əsaslansa da, digər məsələlərdə Qərb filosoflarının, xüsusən də Hegel, Kant, Berqson, Leybnits və Eynşteynin mövqeyində durmuşdur. Onun maddi zənginlik və bilik nəzəriyyəsi Hegel dialektikasının təsiri altında olmuşdur.

Məhəmməd İqbal ilk şeirində («Yetim naləsi», 1899) və dastanında («Himalay», 1899) insanı, təbiəti, xalqın dərdini dilə gətirmişdir. «Şəxs sirləri» (1915) və «Şəxs sirlərinin açılışı» (1919) dastanlarında, "Pəyami-Məşriq" (1924), «Zəburi-Əcəm» (1927), «Cavidnamə» (1932), "Müsafir" (1934), «Cəbrayıl qanadları» (1935), «Hicaz ərmağanı» (1938) və sair dini-fəlsəfi, ictimai-əxlaqi əsərlərində insan və cəmiyyət, Allah və təbiət, sevgi və ağıl, Şərq və Qərb aləmi haqqında orijinal fikirlər irəli sürmüşdür.

1922-ci ildə kral V Georq Əllamə Məhəmməd İqbala "Cəngavər" ordeni vermişdir.

Məhəmməd İqbal 1908-ci ildə vətənə qayıdıb Lahor kollecində işləmişdir. O, Hindistanın müsəlman əhalisinin haqqını qorumuş, imperializmə qarşı çıxmış, Hindistan yarımadasının müstəmləkə boyunduruğundan azad edilməsi

və müstəqil müsəlman dövlətinin yaradılması uğrunda mübarizə aparmış və bu dövlətin "Pakistan" (Pak insanlar ölkəsi) adlandırılmasını təklif etmişdir. Bu fikri ilk dəfə 1930-cu ildə Müsəlman Liqasının fəxri sədri kimi irəli sürən Məhəmməd İqbal ömrü boyu həmin ideyaya sadiq qalmışdır. Mübarizlik baxımından o, istiqlal şairi Məhmət Akif Ərsoya bənzəyir.

Pakistanın siyasi qurucusu Məhəmməd Əli Cinnahla bərabər bugünkü qardaş Pakistan İslam Respublikasının yaranmasında müstəsna rol oynamış Əllamə Məhəmməd İqbalın adı islam xalqlarının azadlıq tarixinə qızıl hərflərlə həkk olunmuşdur.

Türkiyədə Atatürkün apardığı milli azadlıq mübarizəsini dəstəkləyən Məhəmməd İqbal xalq arasında geniş təbliğat kampaniyası təşkil edərək 1,5 milyon sterlinq toplamış və Ankara hökumətinə göndərmişdir.

İqbal 21 aprel 1938-ci ildə Lahorda vəfat etmişdir. Doğum günü (9 noyabr) Pakistanda bayram edilir.

Aşağıda şairin iki şerinin tərcüməsini təqdim edirik.

## EŞQ VƏ ÖLÜM

Dünya çox gözəldi yaranan çağı,
Kədərdən uzaqdı varlıq qucağı.

Günəş göy üzündə qızıl gül idi,
Ay gümüş şölədən bir qəndil idi.

Gecənin əynində zil qara pərdə,
Şam tək nur saçırdı Mərrixlə Zöhrə.

Ağaclar qərq oldu zümrüd yarpağa,
Bahar nəfəsini vurdu torpağa.

Səpdi fəriştələr şəbnəm üstə yaş,
Güllər çöhrəsində gülüş oldu faş.

Hurilər saçı tək zil qara bulud
Çıxdı göy seyrinə, göylər bihüdud.

Qönçələr səssizdi, bülbül ağladı,
Şairin qəlbini bu səs dağladı.

Onda yer söylədi: mənəm asiman,
Məkan nida qıldı: mənəm laməkan.

Onda hakim idi yerdə abadlıq,
Həyata hakimdi gülüş və şadlıq.

Sonsuzluq nurunda süslü fələklər,
Uçuşub dururdu göydə mələklər.

Eşq deyib ötürdü onların biri,
Daima yaxşılıq idi tədbiri.

İztirab və nurun timsalı idi,
Məkrdən, hiylədən o, xali idi.

Sevinclə dolmuşdu onun ürəyi,
Çıxdı qarşısına ölüm mələyi.

Söylədi: «Sən kimsən, de nədir karın,
Niyə dəhşətlidir halın, ətvarın?»

Ölüm cavab verdi: «Adım əcəldir,
Məni əta edən təqdir əzəldir.

Dirilik libasın para qılıram,
Varlığı, həyatı qara qılıram.
Mənim gözlərimdə ədəm cadusu,
Adəmin üstündə ölüm kabusu.

Və lakin aləmdə var elə qüvvə,
Onun adı eşqdir — ən uca zirvə.

Dəhşət verir mənə o eşq, o qüdrət,
Onun gözlərində nuri-hidayət.

O bəzən gözlərdən yaş olub axır,
İnsanlar o yaşa nur kimi baxır».

Eşq duydu bu sözü, güldü, gülüncə,
Nurlara büründü qaranlıq gecə.

Ölümün üzünə düşdü həmən nur,
Onu para qıldı. Eşq isə məğrur.

Eşq gəldi, ölümü tarü mar etdi,
Həyatı, sevgini bərqərar etdi.

## GÖZƏLLİYİN MAHİYYƏTİ

Bir gün gəlib tanrıya sual verdi gözəllik:
«Niyə məni etmədin əbədilik, əzəllik?»

Tanrı ona söylədi: «Aləm bir surətxanə,
Gecə-gündüz olmasa — həyat özü əfsanə.

Varlıq özü yoxluqdan, yox da vardan ibarət,
Adəmzadı bənd edər — nə ki olsa əmanət».

Ay bu sözü dinləyib qəmgin oldu, alışdı,
Öz dərdini sübhədək ulduzlara danışdı.

Zöhrə dana söylədi, dan söylədi şəbnəmə,
Bu nidadan qəmginlik, sükut çökdü aləmə.

Gül yaxasın çak edib, yerə əydi başını,
Qönçə bağrı qan oldu, şəbnəm tökdü yaşını.

Çəmənləri tərk etdi lalə, nərgiz, yasəmən,
Solunca gül-çiçəklər, soldu çayır və çəmən.

(Şeirləri RAMİZ ƏSKƏR tərcümə edib)

Prof. Dr. Ramiz Əskər
Bakı Dövlət Universiteti türkologiya kafedrasının müdiri

# TƏCRÜBİ ELMLƏR BAXIMINDAN İMAM MEHDİNİN (Ə.F) UZUNÖMÜRLÜLÜYÜ

***Məhdəviyyət mövzusunun ən mühüm və diqqəti cəlb edən məsələlərindən biri də İmam Mehdinin (ə.f) uzunömürlülüyü məsələsidir. Bu mövzu daim islam mütəfəkkirləri arasında diskusiya və müzakirə mövzusu olmuş. Bu barədə müxtəlif iradlar və bu iradlara cavablar verilmişdi.***

***Bu yazıda isə məqsədim mövzunun dini qaynaqlarımızda qeyd olanlara (Quran və hədislərə) əsasən deyil, təcrübi elmlər vasitəsi ilə araşdırılmasıdır. Güman edirəm ki, bu yazıda qeyd edilənlər dəyərli oxucular üçün faydalı və bu məsələ barədə zehnlərindəki pərdəni az da olsa, kənara çəkə biləcək təsir gücünə malik olacaq.***

### Mövzunun təcrübi elmlər vasitəsi ilə araşdırılması

***Ruhi və cismi xəstəliklər insan ömrünü qısaldan amillərdən biridir.***

Allah-taala insanları yaratdıqda onların ömrünü birinin digərininki ilə müqayisədə bərabər təyin etməmişdir. Təcrübə və elmin də isbatladığı kimi, insan ömrünün müddətinin təbii amillərlə birbaşa əlaqəsi vardır. Yaşadığımız dünyada bir çox müxtəlif bakteriya, mikrob və virus növləri kəşf edilmişdir ki, insan həyatının müddətinə təsir etmə məsələsində bilavasitə rol oynaya bilər.



Bu məcmuənin bəzi amilləri insan yaşayışı üçün təhlükəli olub onun həyatını təhdid etməkdədir. Lakin onların varlığı da bəşərin naqis elmi sayəsində zədələnmiş ekosistemin dövr etməsi üçün zəruridir. Digər tərəfdən də bu gün bəşərin müdaxiləsi nəticəsində müxtəlif növ zərərli və öldürücü zəhərli maddələr yer kürəsində yayılmaqdadır. Maşınqayırma, yeyinti və digər sənaye məhsullarının qarışıq və zərərli tərkibi buna misal ola bilər. Həmçinin məlum statistik göstəricilərə əsasən, dünya cəmiyyətinin yüz milyondan çoxu aclıq və səfalət içindədir. Belə olan halda yer kürəsinin əhalisinin çox hissəsi ilkin gigiyenik vasitələrdən belə məhrumdurlar. Bunun nəticəsində insan bədəninin həyatverici qüvvələri yalnız qismən olaraq fəaliyyət göstərir, getdikcə zəifləyir və nəticədə bədən öz müqavimətini itirir.

Bəşərin özü üçün yaratdığı müəyyən çətinliklər nəticəsində qazanılan ruhi sarsıntıları da bu məcmuəyə əlavə etsək, məsələnin əhəmiyyəti bir az da artacaq. Həqiqətən də, ruhi sarsıntılar insan ömrünün tükənməsinə gətirib çıxaran amillərdəndir. Cismi xəstəliklərin 80%-i ruhi xəstəliklər və sarsıntılar nəticəsində baş verir. İnsan fiziologiyası ilə işləyən həkimlərin əksəriyyəti insan bədənindəki xəstəliklərin elə bədənin özündən və əsəb sisteminin pozulmasından qaynaqlandığını desə də, əsəb sisteminin özü də cismin bir hissəsi olub beyin vasitəsi ilə birbaşa ruha tabedir.

Sual oluna bilər ki, "bəs nəyə görə keçmiş zamanlarda da insanların həyatı qısa olub?" Cavabında deyərik ki, əgər keçmiş dedikdə uzaq keçmiş nəzərdə tutulursa, görəcəyik ki, o zamanlarda insanların ömrü bugünkü qədər qısa olmamışdır. Həmin dönəmlərdə statistik qurumlar və bu statistikanı qeyd edəcək təşkilatlar olmadığından onların yaşları və yaşadıqları müddət barədə məlumatlar bizə gəlib yetişməyib. Lakin öz zamanında fərqlənən və cəmiyyətdə müəyyən statusa malik olan şəxslərin həyatı və onların uzunömürlülüyü barədə məlumatlar tarixi, dini mətnlər vasitəsi ilə və yaxud da dildən-dilə ötürülərək günümüzə qədər gəlib çatmışdır. Biz bu məsələyə "Mövzunun Quran və hədislər vasitəsi ilə araşdırılması" bölməsində işarə edəcəyik. Yox əgər keçmiş dedikdə yaxın keçmiş nəzərdə tutulursa, bunun da səbəbi uzaq keçmişdəkindən fərqli olaraq cəmiyyətdəki kütləvi artımdır. Cəmiyyət artdıqca isə onların tələbatlarının ödənilməsi, cismi və ruhi baxımdan sağlamlıq problemlərinin aradan qaldırılması çətinləşir. Bu baxımdan da həyat müddəti getdikcə qısalır.

Bu deyilənləri nəzərə almasaq belə, bu gün elm sübut edib ki, insan sosial tələbatlarından qaynaqlanan ehtiyaclarını doğru-düzgün ödəyib cismi və ruhi aramlığa və sağlamlığa nail olarsa, həyat müddətini uzada bilər. Bəşərə təcrübələr və ya digər vasitələr nəticəsində aydın olub ki, insanın həyatı və diri qalması üçün deyil, ölümü üçün səbəb lazımdır. Məhz elə buna görə də kiminsə ölüm xəbərini eşitdikdə dərhal "nədən öldü?", "nə xəstəliyi vardı?" və s. soruşuruq.

Bu kiçik müqəddimədən sonra mövzu barədə əhatəli izahata başlayaq.

### İmam Mehdinin (ə.f) sağ qalması barədə tibbi arqumentlər

Dünyadan köçən hər bir kəsin ölüm səbəbi hər hansısa bir xəstəlikdir. Tibb deyir ki, əgər hər bir insan gigiyenik qaydalara riayət edərsə, daim sağlam qalaraq uzun müddət yaşamağa qadirdir. Bu insan orqanizmindəki bütün hüceyrələrə də aiddir. Bu mənada ki, insan orqanizmini təşkil edən hər bir kiçik hüceyrə zərərli və məhvedici təsirlərdən uzaq olarsa, uzun müddət yaşama qabiliyyətinə malikdir.

Bioloq, fizioloq və cərrah Dr. Aleks Karl deyir: "Zaman ötməsi qocalığa gətirib çıxaran səbəb deyil".

Dr. Karl "İnsan adlı məchul" kitabının beşinci fəslində bu barədə əhatəli şəkildə danışaraq qeyd edir ki, əgər qidaların tərkibi sabit saxlanılarsa (yəni, gen modifikasiyasına uğramış sağlam qida qəbul edib sabit qida rasionuna malik olsaq), hüceyrələr kompleksi daim öz fəaliyyətinə davam edəcəkdir. Əgər həcmin artmasının (kökəlmənin) qarşısı alınarsa, insanda qocalma da baş verməyəcək.

Dr.Karl Amerikanın "Rokfeller" elmi-tədqiqat mərkəzində tədqiqatla məşğul olduğu zaman heyvanın bədənindən ayrılmış üzvünün heyvanın adi yaşayış müddətindən də çox saxlanılmasına

nail olmuşdur. O, cücənin bədənindən ayrılmış üzvü 8 il diri və canlı saxlamağa nail olmuşdur. Bu alim öz elmi araşdırmaları və apardığı təcrübələr barədə ətraflı söhbət açaraq deyir: "Əgər diri hüceyrələrdə qida çatışmamazlığı olmayıb onlarda mikrobların nüfuzunun qarşısı alınarsa, onlar davamlı olaraq sağ və diri qalacaqdır. Əlavə olaraq qeyd olunan bu üzvlər (hüceyrələr) heyvanın bədəninin bir parçası olduğu zaman inkişaf edib çoxalmağa malik olduqları kimi, diri olduqda da inkişaf və çoxalma qabiliyyətinə də malikdirlər. Hətta bu inkişaf və çoxalmanın əndazəsini onları qidalandırmaqla da ölçmək olar".

Bu böyük alimin əhatəli araşdırmasının nəticəsi bundan ibarətdir ki, hüceyrələrin zəifləməsinin və onların fəaliyyətinin dayanmasının səbəbi zamanın ötməsi ola bilməz. Onlarda qocalığın azacıq da olsa təsiri müşahidə olunmur. Deməli, məlum olur ki, qocalıq səbəb deyil, nəticədir.

**Qocalıq səbəb deyil, nəticədir**

Dr. Aleks və həmçinin digər elm adamları bu təcrübəni insandan ayrılan ürək, böyrək, əzələ, dəri və s. üzvlər üzərində keçirmişlər. Nəticədə həmin üzvlərə lazımi qida maddəsinin ötürüldüyü müddətcə diri qaldığının və inkişaf etdiyinin şahidi olmuşlar.

Dr. Aleks toyuqdan ayrılmış bir ürək üzərində apardığı təcrübə zamanı onu qida maddələri ilə zəngin bir mühitdə saxlamışdır. Əldə etdiyi böyük elmi nailiyyət və nəticədən biri də zamanın ötməsinin həmin ürəyin zəifləməsinə, inkişaf və fəaliyyətinin dayanmasına az da olsa təsir etməməsi olmuşdur. Buna əsasən, alimlərin əldə etdiyi nəticə budur ki, lazımi qida maddələri və diri bir mövcudun ehtiyac duyduğu hər bir şey ona yetişərsə, zamanın ötməsi onun zəifləmə və qocalmasına azacıq da olsa, təsir etmə imkanına malik deyil.

Bu təcrübəni ilk dəfə heyvanlardan ayrılmış üzvlər üzərində aparan şəxs "Rokfeller" elmi-tədqiqat mərkəzində fəaliyyət göstərən Dr. Bob Lob olmuşdur. O, mayalandırılmış yumurta hüceyrələrindən qurbağaların inkişafını tədqiq etdiyi zaman onlardan bəzilərinin uzun müddət yaşadığını və bəzilərinin isə tez öldüyünü müşahidə etmişdir. Elə bu məsələ onun bu təcrübəni qurbağadan ayrılmış üzvlər üzərində həyata keçirməsinə bais olmuşdur. Bu təcrübələr nəticəsində onların uzun müddət diri qalmasına nail ola bilmişdir.

Qocalığın səbəb olmadığı aşkarlandıqdan sonra insanın nə üçün və hansı səbəbdən ölməsini və yaşayış müddətinin qısalmasını araşdırmaq maraqlı olardı.

Nəyə görə qocalırıq?! Bu sualın cavabında deyə bilərik ki, insanın və heyvanın bədən üzvləri çox və müxtəlifdir. Bu üzvlərin arasında müxtəlif rabitə və bağlılıq vardır ki, birinin həyatı digərinə bağlı və ondan üstündür. Əgər hər hansısa bir səbəbdən bu üzvlərdən biri zəifləyib ölərsə, digərlərinin də zəifləməsinə və nəticədə ölməsinə gətirib çıxaracaq. Buna dəlil olaraq mikrobların hücumundan baş verən ani ölümləri misal göstərmək olar. Bu məsələlər insanlardakı orta ömür müddətin 80 ildən az olmasına gətirib çıxarmışdır. Xüsusilə də bəzi uşaqlar bu təsirlər nəticəsində hələ körpə ikən dünyasını dəyişir. Bu günə qədər isbatlanan şey budur ki, bir şəxsin ölümünün səbəbi onun 70 və ya 80 il yaşaması deyil, hansısa xəstəlik və dağıdıcı amil bədən üzvlərindən (hüceyrələrindən) birinə həmlə edərək, onun müqavimətini sarsıdaraq məhv etməsidir. Üzvlər arasındakı rabitənin varlığını nəzərə alaraq deyə bilərik ki, bir üzvün ölməsi (hüceyrə kompleksinin dağılması) digərinin də zəifləməsi və nəticədə ölümünə gətirib çıxarır. Deməli, elm bu yan təsirlərin və insan orqanizminin məhvinə gətirib çıxaracaq amilləri zərərsizləşdirərək onların təsirinin qarışını alacaq vasitələri taparsa, artıq bir neçə yüz və ya min il yaşamaq üçün heç bir maneə olmayacaqdır.

Gofland adı ilə tanınmış almaniyalı alim bəşərin adi yaşayış müddətinin 200 il, 19-cu əsrin məşhur fizioloqu Flüger bunun 600, ingiltərəli Cou Bink isə min ilə bərabər olduğunu qeyd etmişlər. Lakin onlar bu dedikləri konkret yaş sərhədləri üçün heç bir dəlil təqdim etməmişlər.

Həkimlərdən biri deyir: "İnsanın ömrünün müddəti və həmin müddəti keçdikdən sonra yaşamasının qeyri-mümkün olması üçün heç bir hədd təyin olunmamışdır. İnsanın bədən üzvləri ayrı-ayrılıqda uzun müddət yaşamaq xüsusiyyətinə malik olaraq qurulub".

Alimlərdən biri insan ömrünün digər varlıqların ömrü ilə müqayisəsi barədə geniş araşdırmalar apardıqdan sonra insan bədəninin min illərlə yaşamaq xüsusiyyətinə malik olaraq qurulduğu qənaətinə gəlmişdir.

İnsanın bədən üzvləri uzunmüddətli yaşayış qabiliyyətinə malikdir. Bəzi alimlər deyirlər: "Canlıların bədən üzvləri uzunmüddətli yaşamaq qabiliyyətinə malikdirlər. Heç bir hadisə baş verməzsə (yan təsirlər olmazsa), insan min illərlə ömür sürə bilər".

"Cons Mans" Universitetinin müəllimi Raymon Virl deyir: "İnsanın bədən üzvlərin uzunmüddətli yaşamaq qabiliyyətinə malikdir. Bu məsələ dəfələrlə aparılmış təcrübələr nəticəsində də öz təsdiqini tapmışdır".

"Kaliforniya" Universitetinin patoloji dəyişkənliklər üzrə mütəxəssisi olan Roy Li və Valfordun dediklərinə əsasən, qocalıq hüceyrələrin yerini dəyişməsindən qaynaqlanan uzunmüddətli bir xəstəlikdir. Qocalığın müəyyən mərhələləri maddələr mübadiləsinin, vəzilərdəki ifrazatın və s. pozulması kimi fiziologiyanın dağılmasındakı qanunauyğunluqlarla bağlıdır.

Qərb alimlərindən biri deyir ki, bağırsaqdakı mikrobların fermentasiyasından yaranan zəhərli maddələr və qəbizlik qocalığa gətirib çıxaran amillərdən olması mümkündür. Əgər bunların qarşısı alınarsa, insan ömrünün müddəti uzana bilər. Elmi cəhətdən də bu xəstəliyin müalicəsi mümkündür. Təcrübəli mütəxəssislərin səyi nəticəsində bu iş gələcəkdə praktiki olaraq həyata keçiriləcək.

Qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, İmam Mehdinin (ə.f) uzunömürlü olması elm və əqlin ziddinə deyil. Bəlkə də, bu cür məsələlər yeni elmi kəşflərin yaranmasına səbəb olmuşdur. Belə ki bu inanc nəticədə bəşərin uzun müddət elmi araşdırmalardan sonra uzunömürlülüyün sirrini kəşf edəcəyinə gətirib çıxaracaq.

Bəşərin uzunömürlü olmasının mümkünlüyünü ortaya qoyan bir çox alimin apardıqları təcrübələr barədə məlumat verdik. Əldə etdiyimiz nəticə bundan ibarət oldu ki, əgər münbit şərait, düzgün qidalanma və yaşayış şərtləri, o cümlədən insanın sağlamlığına təsir edəcək kənar amillər olmazsa, uzunömürlülüyə nail olmaq olar.

Bəhruz Camal

*(O Peyğəmbər) onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz (pak) nemətləri halal, murdar (napak) şeyləri haram edər...*
*(Əraf, 157)*

# ZƏRƏRLİ VƏRDİŞLƏR

**Ey iman gətirənlər! Şərab da (içki də), qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız! Şübhəsiz ki, Şeytan içki və qumarla aranıza ədavət və kin salmaqdan və namaz qılmaqdan ayırmaq istər. Artıq bu işə son qoyacaqsınızmı? (Maidə 90-91)**

*Malınızı Allah yolunda xərcləyin və öz əllərinizlə özünüzü təhlükəyə atmayın. Yaxşılıq edin! Həqiqətən, Allah yaxşılıq edənləri sevir.*
*(Bəqərə, 195)*

## ŞƏRAB




Allahın Peyğəmbəri (s):«Bütün pisliklər bir evə yığışıb və bu evin açarı şərab içməkdir.». İslam, sərxoşluq yaradan hər şeyi yasaqlayır. Bu beş əmanətin güvənliyi üçündür: 1. Canın qorunması; 2. Ağlın qorunması; 3. Dinin qorunması; 4. Nəslin qorunması; 5. Malın qorunması.

İnsanın ağlını başdan alan şərab münasibətləri korlayır, insanı cinayətə sövq edir, inkişafdan dayandırır, səmərəli fəaliyyətinin qarşısını alır. Onun insanın sağlamlığına da zərərləri çoxdur. Ağciyərlərə mənfi təsir edərək onun oksigenlə daimi təminatını pozur. Qaraciyərin yağlanmasına, iltihab baş verməriskinə və sonda sirozun baş verməsinə səbəb olur. Spirtli içkiyə vərdiş edən insanlarda ürək təzyiqinin yüksəlməsi baş verir....



## QUMAR




Hər bir oyun və ya yarış ki, orada qalib gələn tərəfin (oyunçu və yarışçı) məğlub tərəfdən pul, mal-mülk alması şərt qoyulursa, bu əməl qumar hesab olunur. İmam Sadiq uşaqların udub-uduzmaqla qazandıqları qozu yeməyi belə qadağan edərək buyurmuşdur. Onu yemək haramdır.

Qumar ailələrin dağılmasına, müflisləşməsinə, hörmətli şəxslərin zəlil olmasına səbəb olur. Oyunçular arasında düşmənçilik, kin və küdurət toxumları səpir. Allahı zikr etməyə maneəçilik törədir. Çalışqanlıqdan uzaqlaşdırıb tənbəllik yaradır. Oyunçunu cinayətə belə sövq edir. İnsanlarda narahatçılığa və stressə, xəstəlik və əsəb gərginliyinə səbəb olur.



## NƏŞƏ




Qurani-Kərimdə "Xəmr" haram hesab olunur. Xəmr insanın ağlını başdan alan bütün sərxoş edicilərdir. Narkotik maddələrdə də bu xüsusiyyət olduğu üçün istifadəsi haramdır. İçkili insanın düşdüyü hallar kimi cinayət törətmək və s. vəziyyətlərə, şərəfli əxlaqa zidd hallara gətirib çıxara bilir.

Narkotikin insanı pis yola salır. İnsanın ağlına təsir edərək asılılıq meydana gətirir. İnsanı pis əxlaqlı edir. Onun malını-pulunu hədər edir. Cəmiyyətə də çox zərər vurur, bunlardan: Ailə problemləri, boşanmalar. Oğurluq, quldurluq və başqa cinayətlərə yol açır. Uşaqların tərbiyəsinə çox mənfi təsir edir. Səmərəli iş qabiliyyətini itirməsi ilə nəticələnir və s. İnsanın sağlamlığına da zərər verir. Ən böyük zərəri beyin və mərkəzi sinir sisteminə göstərir.



## TÜTÜN




İslam alimlərinin əksəriyyəti baxımından siqaret çəkmək günah sayılmasa da, bəyənilən əməl hesab edilmir. Çünki siqaret həm tibbi, həm də maddi baxımdan zərərlidir. Zərərləri nəzərə alaraq, siqaret çəkməyi mütləq mənada haram hesab edənlər də var. Alimlər qeyd edirlər ki, əgər siqaret çəkmək hər hansı bir xəstəlikdən dolayı insanın sağlamlığına bilavasitə ciddi ziyan vurursa, o zaman haram olur.

Siqaret çəkmənin maddi ziyanlarından və pis tüstü, qoxusu ilə ictimai narahatçılığa səbəb olmasından və ətrafı zəhərləməsindən əlavə bir çox tibbi baxımdan da zərərləri vardır: Öskürdür və bəlğəm əmələ gətirir; Xroniki bronxitlə və emfiezemyaya səbəb olur; Ağciyər və qırtlaq xərçənginin əmələ gəlməsinə səbəb olur. Qol və qıç damarlarında tıxanmalar əmələ gətirir, qanqren olur, əl və ayaqların kəsilməsinə, şikəstliyə səbəb olur; Beyni qidalandıran damarlarda da elastikliyin azalmasına səbəb olur. İflic olma hadisələri meydana gəlir; Ürək xəstəliklərinin, infarktlarının əmələ gəlməsinə zəmin yaradır.



*Gürcüstan Müsəlmanları İdarəsi 2019*